www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 sentyabr 2019-cu il Cümə № 189 (7359) Qiyməti 60 qəpik

Xəbər

## Balıq mövsümü başladı-qiymətlər

yazısı səh.14-də

Gündəm

### Bakıda daha bir nüfuzlu beynəlxalq tədbir



20 ölkənin media kapitanı Umumdünya Mətbuat Şuraları Assosiasiyasının toplantısında iştirak edir; **Əli Həsənov:** "Sosial şəbəkələrə dövlət səviyyəsində verilən əhəmiyyətin nəticəsidir ki..."

yazısı səh.7-də

### Prezident İlham Əliyev açılışlarda

yazısı səh.2-də

### Müxalifətin "Məhsul"unu niyə məhz indi "becərdilər"-YAP-çı deputat açıqladı

yazısı səh.4-də

### Hakimiyyət hansı xarici müdaxilədən şübhələnir?

yazısı səh.6-da

### Rusiya ilə yeni mühüm ticari anlaşmalar

yazısı səh.9-da

### Qarabağ probleminin həllinə vasitəçi-əngəllər

yazısı səh.11-də

### Dərs kitabları ilə bağlı yeni problem-günahkar kimdir?

yazısı səh.12-də

### Azərbaycanlı xanımların əcnəbilərlə evlənmə sayının artmasına maraqlı reaksiyalar

yazısı səh.13-də

### Bakıda 1 milyon dollara "Rolls-Royce" satılıb

yazısı səh.14-də

### Boltonun gedişi, "ABŞ İranla barışır" iddiası

yazısı səh.10-da

### İntihar edən qızın ailəsi sabiq direktorun ev dustaqlığından çıxmasını tələb edir-100 min pul məsələsi...

yazısı səh.3-də

# ERMƏNİSTAN İNQİLAB EYFORİYASINDAN ÇIXIR - KRİTİK GÖZLƏNTİ

Hökumət özünümüdafiə taktikasına keçir; xalqdan qorunmaq üçün qalxan qismində "ehtiyat qüvvə" yaradılır; **erməni nəşri:** "Paşinyan hadisələrin mümkün inkişaf ssenarilərinə hazırlaşır..."



yazısı səh.8-də

## Evi qarət edilən Mahir Emrelinin nə qədər var-dövləti var-ilginc gəlişmələr

Futbolçunun evinin qarət edilməsi onun ailəsi ilə bağlı problemləri yenidən gündəmə gətirib; **atası:** "Bütün mal-mülkümü, fermasından tutmuş hər bir şeyə qədər onların adlarına keçirdim"

yazısı səh.3-də



### İsrailin baş naziri Elmar Məmmədyarovu kabinetindən etdi-təfərrüat

yazısı səh.10-da



### Etibar Məmmədovla bağlı16 ilin sirri açıldı

yazısı səh.4-də



*Eldar Namazov:*

### "Azərbaycan çox ciddi sınaqlar qarşısındadır"

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 189 (7359) 13 sentyabr 2019



# İlham Əliyev AŞ PA prezidentini qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 12-də Avropa Şurası Parlament Assambleyasının prezidenti xanım Lilian Mori Paskenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. "Report"un xəbərinə görə, söhbət zamanı AŞ PA prezidenti xanım Lilian Mori Paskienin Azərbaycanla tanışlığının, müxtəlif səviyyələrdə keçirilən görüşlərin və aparılan müzakirələrin əlaqələrimizin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaratdığı qeyd olunub.**

Görüşdə bu il Avropa Şurasının təsis edilməsinin 70 illiyinin qeyd olunduğu və bu çərçivədə keçirilən tədbirlərin önəmi vurğulanıb.

Söhbət zamanı Azərbaycan-Avropa Şurası əməkdaşlığının müxtəlif aspektləri geniş müzakirə edilib, Azərbaycanın Avropa Şurası çərçivəsində mövcud olan konvensiyalara qoşulması və bu istiqamətdə ölkəmizin qanunvericiliyinin uyğunlaşdırılması məsələlərinə toxunulub.

Görüşdə Azərbaycanda insan haqlarının qorunması, demokratik inkişafla bağlı məsələlər müzakirə edilib.

Söhbət zamanı Avropa Şurasının gündəliyində duran və qarşılıqlı maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Sosial mənzillərin növbəti satış tarixi məlum oldu

**Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə elan verib. MİDA-dan verilən məlumata görə, Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 10-13 saylı binaları üzrə 10 mənzil, həmçinin 14, 15, 16, 17, 18, 19, 20, 21 və 22 saylı binalarında yerləşən 560 mənzilin, ümumilikdə 570 mənzilin satışı 16 oktyabr 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 30 oktyabr 2019-cu il tarixi saat 11:00-dək davam edəcək.**

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq gözləmə qaydasında mənzillərin seçimi 18 oktyabr 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 30 oktyabr 2019-cu il tarixi saat 11:00-dək davam edəcək.

# Prezident İlham Əliyev açılışlarda

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Suraxanı rayonundakı Əmi Məmmədov adına 101 nömrəli tam orta məktəbin əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olub.**







Bakı Metropoliteninin "Xətai" stansiyası əsaslı təmir və yenidənqurmadan sonra sentyabrın 12-də istifadəyə verilib. Prezident İlham Əliyev stansiyada görülən işlərlə tanış olub. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib. Bildirilib ki, "Xətai" stansiyası 1968-ci ildə istismara verilib. Stansiyanın 50 ildən artıq istismar müddətində köhnələn, müasir dövrün tələblərinə cavab verməyən bütün infrastrukturun yenilənməsi məqsədilə təmir mərhələlərlə aparılıb. 2014-cü ildə birinci mərhələdə stansiyanın platformasının orta zalı, stansiya yolu və "Xətai-Cəfər Cabbarlı" mənzilinin müvafiq tunelində əsaslı təmir və yenidənqurma tədbirlərinə başlanılıb. Bu dəfə aparılan yenidənqurmadan sonra "Xətai" stansiyası əsaslı yenilikləri ilə sərnişinlərin xidmətində olacaq. Stansiyanın infrastrukturu və görkəmi tamamilə yenilənib. Burada funksionallığı ilə seçilən 4 yeni müasir eskalator quraşdırılıb. Bakı Metropoliteninin ən dərin stansiyasında sərnişinlərin enib-qalxma təhlükəsizliyinin, təxliyə imkanlarının və rahatlığının artırılması, xidmət səviyyəsinin daha da yüksəldilməsinə nail olunub.

Qeyd edilib ki, Bakı Metropolitenində müasir tipli qatarların sayı 11-ə çatdırılıb. Rusiyanın "Transmaşholdinq" Səhmdar Cəmiyyətinin tərkibinə daxil olan "Metrovaqonmaş" ASC 2019-cu ildə Bakı Metropoliteni üçün 30 vaqondan ibarət 6 qatar tərkibi istehsal edib. Dörd qatar tərkibi iyul və avqust aylarının əvvəllərində xəttə buraxılıb.

Stansiyada aparılan əsaslı təmir və yenidənqurma zamanı giriş vestibülü və platformanın orta zalının divarında Şah İsmayıl Xətai və onun yaradıcılığına həsr olunmuş bədii-memarlıq kompozisiyaları da bərpa olunub. Eskalatorların maşın zalı da əsaslı təmir edilib, stansiyanın digər infrastrukturunun yenilənməsi tədbirləri görülüb. Dövlət başçısına Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan Təlim-Tədris Mərkəzi barədə də məlumat verilib.



# Səfayə Əhmədovaya yeni vəzifə verildi

**Tanınmış jurnalist, Səhiyyə Nazirliyinin mətbuat xidmətinin keçmiş əməkdaşı Səfayə Əhmədova yeni vəzifəyə təyin edilib.**

Aldığımız xəbərə görə, S.Əhmədova İçərişəhər Qoruq İdarəsinin mətbuat xidmətində baş məsləhətçi vəzifəsinə təyin edilib.

Səfayə Əhmədova musavat.com-un əməkdaşı ilə söhbətində məlumatı təsdiqlədi və artıq işinin başında olduğunu dedi: "Etimad göstərib bu vəzifəyə layiq bildiyi üçün İçərişəhər Qoruq İdarəsinin rəhbərinə minnətdarlığımı bildirirəm".

12 il Səhiyyə Nazirliyinin mətbuat xidmətində çalışdığı dönəmdə mətbuatla səmərəli əməkdaşlıq qurmağı bacaran, peşəkarlığı, davranışları ilə nüfuz qazanan Səfayə Əhmədova 2019-cu il avqustun 16-da həmin işindən öz istəyi ilə ayrılmışdı.

Qeyd edək ki, S.Əhmədova Səhiyyə Nazirliyindən əvvəl "Burc Fm" radiosunda, "Space", "Lider" telekanallarında aparıcı, xəbərlər departametinin rəhbəri vəzifəsində, habelə "Kaspi" qəzetində çalışıb.

Həmkarımıza uğurlar diləyirik!

❑ Musavat.com

# Rusiya XİN nüvə müharibəsindən ehtiyat edir

**Mövcud beynəlxalq situasiyada nüvə müharibəsi riski mövcuddur. Virtualaz.org bildirir ki, bunu Rusiya Federasiyası xarici işlər nazirinin müavini Sergey Ryabkov TASS-ın mətbuat mərkəzində "Yeni Anlaşma və Çoxtərəfli Strateji Sabitliyin Gücləndirilməsi Yolları" adlı məruzənin təqdimat mərasimində çıxış edərkən deyib.**

Onun sözlərinə görə, nəzərəçarpan mənfi dinamika son bir ildə nüvə müharibəsi riskini xüsusilə artırıb.

XİN başçısının müavini söyləyib ki, Qərb daha emosional davranır və aqressivlik nümayiş etdirir: "Onlar aktual mövzuları müzakirə etməkdən çəkinirlər, dialoq kanallarının fəaliyyətinə mane olurlar. Onlar silahlara nəzarətin mexanizmlərini sarsıtmağa davam edirlər".

S.Ryabkov əlavə edib ki, bu, son dərəcə təhlükəli və məsuliyyətsiz davranışdır.

S.Ryabkov onu da əlavə edib ki, Vaşinqton strateji hücum silahlarının azaldılması və məhdudlaşdırılması üzrə müqavilənin uzadılmasını əsaslı şəkildə müzakirə etməyə hazır deyil.

Onun sözlərinə görə, nüvə gücləri nüvə müharibəsinin yolverilməzliyini bir daha təsdiqləməlidirlər: "Klassik formulalar var. Yeri gəlmişkən, bunlar indi Vaşinqtonda söz sahibi olan bir çox hazırkı liderlərin özləri üçün büt hesab etdikləri prezident Ronald Reyqanın da iştirakı ilə cilalanıb".

# İlqar Məmmədovla Əli Kərimli debata çıxır

**"Avqustun 19-da AzadlıqRadiosunun jurnalistləri Şahnaz Bəylərqızı və Ramin Deko mənə müraciət edərək AXCP sədri Əli Kərimli ilə debata çağırdılar. Razılıq verdim".**

Bu sözləri ReAl Partiyasının sədri İlqar Məmmədiov deyib. İ.Məmmədovun sözlərinə görə, o, jurnalistlərə bir şərtlə razılıq verib: "Dedim ki, əgər mövzu "boykot, yoxsa seçki"dirsə, onda AXCP boykot qərarını verən kimi, bu debata qatılacam, çünki başqa elə bir mübahisəli mövzu yoxdur. Məsələ o nöqtədə qalmışdı, bir xəbər gəlmədi. Xədicə İsmayılova da belə bir debatda moderatorluq etmək təşəbbüsü ilə çıxış edib. Baxmayaraq ki, Xədicə İsmayılova aşağılayıcı səbəb gətirərək mənimlə maraqlanmadığını bildirmişdi, dəvəti qəbul edirəm. Mövzuları gözləyirəm".

Xədicə İsmayıl isə İlqar Məmmədova və Əli Kərimliyə debat təklifini qəbul etdikləri üçün təşəkkürünü bildirib.

"Yaxın günlərdə vaxtını və digər detalları açıqlayacağıq",- o qeyd edib.

# Əhaliyə ölmüş heyvan əti satan "Leş Tofiq" və dəstəsi ifşa edildi



**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssislərinin iştirakı ilə birgə vətəndaşların ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib.**

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, əməliyyat zamanı mütəşəkkil dəstə tərkibində birləşən əvvəllər eyni əməllərə görə məhkum olunmuş şəxslərin yaratdığı şəbəkənin üzvləri ifşa olunaraq məsuliyyətə cəlb ediliblər.

Toplanmış materiallardan müəyyən edilib ki, mütəşəkkil dəstənin üzvləri bir müddətdir ki, qidaya yararsız, ölmüş iri buynuzlu mal və at ətlərinin respublikanın müxtəlif rayonlarından toplanması, tədarükü və emalı ilə məşğul olublar.

Belə ki, mütəşəkkil dəstəyə rəhbərlik edən, əvvəllər məhkum olunmuş "Leş Tofiq" ləqəbli Alıbəy Rzaxanov Abşeron rayonunun Güzdək qəsəbəsi ərazisində ət tədarükü məntəqəsi yaradaraq qanuni fəaliyyət göstərən heyvan kəsimi sexi görüntüsü altında pərdələnərək cinayətkar şəbəkə yaradıb. O, qurduğu cinayətkar şəbəkə vasitəsilə rayonlardan mənşəyi məlum olmayan, qidaya yararsız, ölmüş heyvan ətlərinin əsasən gecə saatlarında daşınmasını, emal edilməsini, satışa çıxarılmasını təşkil edib.

Əməliyyat tədbirləri zamanı müəyyən edilib ki, mütəşəkkil dəstənin rəhbərlərindən biri Əlifxan Rzaxanov Sabirabad rayonunun Xəlfəli kəndində eyni qaydada tədarük məntəqəsi yaradaraq mənşəyi məlum olmayan heyvan ətlərinin ətraf rayonlardan toplayaraq Alıbəy Rzaxanova göndərilməsini təşkil edib.

Dəstə üzvlərinə məxsus Abşeron rayonunun Güzdək qəsəbəsində, Sabirabad rayonunun Xəlfəli kəndində, Bakı şəhəri Nərimanov rayonu ərazisində yerləşən sex, anbar və gizli saxlanc yerlərinə baxış keçirilərkən 40 tona yaxın qidaya yararsız, mənşəyi məlum olmayan mal və at əti aşkar olunub.

Təyin olunmuş müvafiq ekspertizalarla aşkar olunmuş ətin qidaya tam yararsız və insan sağlamlığına ciddi təhlükə mənbəyi olması təsdiq edilib.




# Sosial şəbəkədən çox istifadə edənlər üçün "Nar"dan əla fürsət!

**İnternet və sosial şəbəkədən çox istifadə edənlər üçün ən sərfəli tarif sayılan "CavanNar"-a qoşulanların sayı artmaqdadır. Belə ki, son 1 ayda ikiqat internetdən yararlanmaq imkanı verən "CavanNar" istifadəçilərinin sayı 17% artıb. Qeyd edək ki, "CavanNar 9" abunəçilərə aylıq 9 AZN ödəməklə 5 GB internet, 5GB sosial şəbəkə və 500 tarifdaxili dəqiqə verir. "CavanNar 6" isə 6 AZN ödəməklə 2 GB internet, 2GB sosial şəbəkə və 200 dəqiqə tarifdaxili danışıq verir. Tariflərə istənilən yaş qrupuna aid insanlar qoşula bilərlər.**

**Hər zaman müştərilərinin tələblərini nəzərə alan "Nar", "CavanNar" tarifi üçün təkliflərini daha da artırıb. Belə ki, artıq "CavanNar" abunəçilərinə əlavə internet paketləri sifariş etmək imkanı verir. Istifadəçilər tələblərinə uyğun olaraq 500 MB və ya 1GB əldə edə bilərlər.**

**Əlavə internet paketlərini aktivləşdirmək üçün müvafiq olaraq *777#2#YES (500MB) və *777#4#YES (1GB) kodlarını yığmaq lazımdır. Eyni əməliyyatı daha asan və qısa zamanda həyata keçirmək üçün yeni istifadəyə verilmiş "Nar+" mobil tətbiqindən də yararlanmaq mümkündür. Qeyd edək ki, əlavə internet paketlərindən aylıq abunə haqqını ödədikdən sonra istifadə etmək olar.**

**"CavanNar" paketləri haqqında daha ətraflı məlumatı ttps://www.nar.az/cavannar-all/ səhifəsindən əldə etmək mümkündür.**

YENİ MÜSAVAT
N 189 (7359) 13 sentyabr 2019

# Evi qarət edilən Mahir Emrelinin nə qədər var-dövləti var - ilginc gəlişmələr

## Futbolçunun evinin qarət edilməsi onun ailəsi ilə bağlı problemləri yenidən gündəmə gətirib; atası: "Bütün mal-mülkümü, fermasından tutmuş hər bir şeyə qədər onların adına keçirdim"

**Azərbaycan milli komandasının və "Qarabağ"ın hücumçusu Mahir Emrelinin evinin qarət edilməsi futbolçunun ailəsi ilə bağlı problemləri də yenidən gündəmə gətirib. Qeyd edək ki, sentyabrın 11-də futbolçunun anası ilə birgə yaşadığı Sulutəpə qəsəbəsi, Ruslan Allahverdiyev küçəsi, döngə 20 ünvanında yerləşən evindən 20 min dollar, 17 min manat, 5 min manatlıq qızıl-zinət əşyaları və 3 ədəd "İphone" markalı telefon oğurlanıb. Faktla bağlı Cinayət Məcəlləsinin 177.2.3-cü oğurluq - yaşayış yerinə qanunsuz daxil olmaqla törədildikdə) və 177.2.4-cü (oğurluq - xeyli miqdarda ziyan vurmaqla törədildikdə) maddələri ilə cinayət işi başlanıb, istintaq hərəkətləri davam etdirilir.**

Mahir Emrelinin anası Elnurə Emreli evdən işlə bağlı bir neçə saatlıq çıxdığı üçün mühafizə siqnalını qoşmadığını və nəticədə oğurluq hadisəsi baş verdiyini söyləyib: "Saytlar mənim adımdan həqiqəti əks etdirməyən məlumatlar yazıblar. Bildirmək istəyirəm ki, ev mənə məxsusdur. Oğurluq hadisəsi günorta saatlarında baş verib. Saat 12:00 radələrində işim olduğu üçün evdən çıxmalı idim. 15:00-a qədər qayıdacağımı bilirdim deyə, mühafizə siqnalını qoşmadım və evdən çıxdım. Əgər mühafizə xidmətinə qoşulsaydı, mühafizə polisi evdə hərəkətin olduğunu dərhal bilərdi. Mən də tez qayıdacağımı bildiyim üçün buna diqqət etmədim. İşdən qayıdıb gələndə gördüm ki, evimiz naməlum şəxs və ya şəxslər tərəfindən qarət olunub". Emrelinin anası əvvəl prodüser kimi fəaliyyət göstərib. Hazırda isə o, məşhur mağazalardan birinin rəhbəridir.



**Mahirin atası, prodüser Anar Mədətovun baş vermiş oğurluq hadisəsi haqda danışması isə yeni müzakirələrə səbəb olub. Belə ki, ailəsindən boşanmış Anar Mədətov deyib ki, Sulutəpədəki ev onundur və onun adınadır.** "Mahirin öz evi yoxdur. Evi mən öz zəhmətim bahasına tikib qurmuşam. Hazırda isə orada keçmiş həyat yoldaşım və uşaqlarım yaşayır. Fevral ayının 15-də mən evi tərk etmişəm. O vaxtdan evdən heç bir xəbərim olmayıb. Xocasəndə hamı bilir ki, bizim evimiz 24 saat mühafizə polisi tərəfindən mühafizə olunur. Mən Binəqədi rayonunun mühafizə polisinin rəisi ilə əlaqə saxladım. Onlar mənə bildirdilər ki, oğurluq hadisəsi baş verən zaman ev mühafizə olunmayıb. Elə bu səbəbdən də oğrular rahat şəkildə evə giriblər. Hazırda isə cinayətkarın tapılması istiqamətində ciddi araşdırmalar aparılır. Bu hadisənin necə və hansı şəraitdə baş verməsi isə müəmmalıdır". Yada salaq ki, Anar Mədətov bir müddət əvvəl xanımından ayrılıb və stilist Samirə Abbasova ilə nikaha girib. Bundan sonra həm Mahir, həm də bacısı Mədətov soyadından rəsmən imtina ediblər.

**Atasının "ev mənə məxsusdur" deməsi isə Emreli ailəsinin ciddi narazılığına səbəb olub.** "Polislər tərəfindən məsələ araşdırılır, istintaq sirri olduğundan bu haqda məlumat verə bilmərəm. Qaldı ev məsələsinə. Əgər ev ona məxsusdursa, evin kupçasını göstərsin". Yeri gəlmişkən, may ayında A.Mədətov qonaq olduğu ARB-dəki verilişlərin birində deyib ki, mal-mülkünü oğlu Mahirin adına keçirib. **Sitat:** "Mahirə axırıncı dəfə dedim ki, nəsə olsa, məni yaddan çıxar, amma futbolunu oyna. Elə bilirlər ki, Mahirin mülkünü mənimsəyəcəklər. Açıq-aşkar dedim ki, nəyim varsa, uşaqlarıma qalacaq. Özlərinə də vaxt verdim. Getdim adlarına keçirdim. Fermasından tutmuş hər bir şeyə qədər. Dedim ki, mənə ferma lazım olsaydı, gedib fermerin qızını alardım".

**A.Mədətovun anası da zaman-zaman bu mövzuya qarışıb və hətta "Xəzər" televiziyasında Xoşqədəm Hidayətqızının aparıcılığı ilə yayımlanan "Səni axtarıram" verilişində şokedici açıqlamalar verib. O deyib ki, oğlu və keçmiş gəlini son on ildə ayrı yaşayırmışlar:** "Elnurə Zaqataladan gəlmişdi, sonradan Bakıda, Türkiyədə evlər aldılar. Oğlumun pulları ilə qohumlarının, qardaşının borcunu ödəyirdi. Anarın da, Elnurənin də on ildir öz həyatları var. Oğlum hər şeyi ona verib evdən çıxıb. Amma Elnurə Anarın sürdüyü maşına da həbs qoydurub. Oğlum rahat nəfəs almaq üçün boşandı, amma özü istəyib evlənmişdi. İndi də Mahiri Anarın yerinə basıblar, maaş kartı əllərindədir".

Anar Mədətov isə son narazılıqlarla bağlı belə açıqlama verib ki, keçmiş ailəsində "kupça" məsələsi ilə bağlı mübahisə olmayıb, bəzi saytlarda yazılan məlumatlar dezinformasiya xarakteri daşıyır.

Günün sonunda hüquq-mühafizə orqanlarından "Report"a verilən məlumata görə, Emrelinin evinin qarət edilməsində şübhəli bilinən iki nəfər gənc Binəqədi Rayon Polis İdarəsi əməkdaşları tərəfindən müəyyən edilib, axtarış tədbirləri davam etdirilir.

**❑ ORXAN, "Yeni Müsavat"**

# İntihar edən qızın ailəsi sabiq direktorun ev dustaqlığının ləğvini tələb edir-100 min pul məsələsi...

## Sevin Abbasova beş ilədək azadlıqdan məhrum edilə bilər, məhkəmə isə...

**Musavat.com xəbər verir ki, sentyabrın 12-də 62 saylı orta məktəbin şagirdi Elina Hacıyevanın ölümünə görə günahlandırılan keçmiş direktor Sevin Abbasovanın məhkəməsi keçirilib.**

Səbayel Rayon Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi keçirilən hazırlıq iclasında təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Mərhum Elinanın ailəsinin nümayəndələri vəsatət verərək cinayət işinin ibtidai istintaqa qaytarılmasını istəyib, səbəb kimi qanun pozuntuları olduğu göstəriblər. Onlar bildiriblər ki, istintaq orqanı Elinanı müayinə edən həkimlər barəsində heç bir araşdırma aparmayıb. Məhkəmə isə vəsatəti təmin etməyib. Onu da qeyd edək ki, hadisə ilə bağlı ilk olaraq Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılmışdı, bu maddəyə istintaq xitam verib.

Zərərçəkən tərəf dünənki məhkəmədə yenə də direktor barəsində seçilmiş ev dustaqlığı qətimkan tədbirinin dəyişdirilməsini, onun həbs edilməsini istəyib. Lakin məhkəmə bu vəsatəti də təmin etməyib.



Elinanın ailə üzvlərinin vəkilləri məhkəməyə 100 min manatlıq mülki iddia təqdim ediblər. Vəsatətdə cavabdeh tərəf kimi Təhsil Nazirliyi göstərilib. Məhkəmə vəsatəti icraata qəbul edib. Sevin Abbasova isə günahsız olduğunu deyib: "Mənim təqsirim yoxdur". "Qafqazinfo"nun xəbərinə görə, **E. Hacıyevanın atası Ədalət Hacıyev deyib ki, məhkəmədən hələ ki bir gözləntisi yoxdur:** "Həkimlərin də məhkəməyə cəlb olunmasını istəyirəm. Onların da əməllərinə hüquqi qiymət verilməlidir. Həkimlər bilavasitə məsuliyyət daşıyır. Onların uşaqlarının başına belə bir hal gəlsəydi, evlərində sakit otura bilərdilərmi?"

"Yeni Müsavat" xatırladır ki, Elina Hacıyevanın intihar etdiyi 162 nömrəli məktəbin direktoru Sevin Abbasova bu ilin aprel ayının 8-də rəsmi olaraq işdən çıxarılıb. Bununla bağlı Təhsil Nazirliyində keçirilən iclasda qərar qəbul edilib. Sonra Sevin Abbasova cinayət məsuliyyətinə cəlb edilib. Təqsirləndirilən şəxs barəsində həbs-qətimkan tədbiri seçilməsi üçün prokurorluğun təqdimatına baxılıb və o, 16 apreldən ev dustağı edilib.

Təhsil Nazirliyi bildirib ki, məktəbin direktoru ilə yanaşı tərbiyə işləri üzrə direktor müavini Lalə Məhərrəmova, sinif rəhbəri Çimnaz Mehdiyeva və məktəbin psixoloqu Könül Ağayevanın əmək müqavilləsində və aidiyyəti normativ sənədlərdə nəzərdə tutulmuş bir sıra vəzifə funksiyalarının icrasını təmin etmədikləri məlum olub.

Nazirliyin apardığı xidməti araşdırma aşkarlayıb ki, Elina Hacıyeva və onun valideynləri ilə müvafiq izahat işlərinin aparılması lazımi səviyyədə təşkil edilməyib, psixoloqun rəyinə əsasən vaxtaşırı olaraq özünə qapanan şagirdə qarşı xüsusi həssaslıqla yanaşılmayıb, şagirdlə əvvəllər olan ünsiyyətlərdən, onun davranış xüsusiyyətləri, ruhi-emosional vəziyyətinin səbəbləri ilə dərindən maraqlanılmayıb, ailə üzvləri ilə yaxından əməkdaşlıq edərək ona psixoloji-mənəvi dəstək göstərilməsinə laqeyd yanaşılıb.

Bundan başqa, təlim-tərbiyə prosesində şagirdin sinfə və ya məktəbə bu və ya digər səbəbdən uyğunlaşmaması, bunun nəticəsində onun digər şagirdlərlə, sinif rəhbəri və müəllim heyəti ilə səmimi ünsiyyətinin qurulmaması, baş verənlərin şagirdin yeniyetmə dövrünə təsadüf etdiyindən, davranışına təsir etməsinin nəzərə alınmadığı deyilir.

Nazirlik həmçinin hadisə baş verdiyi gün məktəb rəhbərliyinin məsuliyyətsizliyi səbəbindən məktəbdə növbətçilik təmin olunmadığını qeyd edib.

Qurum məktəb rəhbərliyinin hadisədən dərhal sonra adekvat və zəruri tədbirlərin görülməsini təmin etmədiyini də qeyd edib.

Sabiq məktəb direktoruna qarşı irəli sürülən maddələr haqda ətraflı məlumat təqdim edirik.

**Maddə 143. Təhlükədə qoyma**

Həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə olan və özünü qorumaq üçün tədbir görmək, imkanından məhrum olan şəxsi bilə-bilə köməksiz qoyma, əgər həmin şəxsi köməksiz qoyan onun qayğısına qalmalı idisə və ya onun özü zərərçəkmiş şəxsi həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə qoyduqda, zərərçəkmiş şəxsə kömək göstərmək imkanı olduğu halda bunu etmədikdə- üç yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 314.2. Səhlənkarlıq, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini

yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və ya qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasına səbəb olduqda - ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**❑ ORXAN, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 189 (7359) 13 sentyabr 2019

# Müxalifətin "Məhsul"unu niyə məhz indi "becərdilər" - YAP-çı deputat açıqladı

**Bakının Yasamal rayonundakı İdman-Sağlamlıq Kompleksi və ətraf ərazidə əsaslı təmir və tikinti işlərinə başlanılıb. Metronun "İnşaatçılar" stansiyasının yaxınlığında yerləşən bu kompleks həm də "Məhsul" stadionu kimi tanınır. Bakı Şəhər İcra Hakimiyyəti kütləvi tədbirlər üçün Yasamal rayonunda bu stadionu ayırıb.**

Sentyabrın 10-da Yasamal Rayon İcra Hakimiyyətindən report.az-a bildiriblər ki, stadion uzun illərdir əsaslı təmir aparılmaması, baxımsız qalması səbəbindən pis vəziyyətə düşüb: "Burada hər hansı idman tədbirinin keçirilməsi mümkünsüz olub, gecə saatlarında stadion tüfeyli həyat tərzi keçirən şəxslərin yığılma yerinə çevrilib, bu da ətraf binalarda yaşayan sakinlərin narazılığına səbəb olub. Sakinlərin çoxsaylı müraciətləri nəzərə alınaraq, həmçinin stadionu müxtəlif idman yarışları üçün yararlı vəziyyətə salmaq, burada idman qurğularını, ot örtüyünü yeniləmək məqsədilə İdman-Sağlamlıq Kompleksində əsaslı təmir işlərinə başlanılıb".

Novator.az bildirir ki, "Məhsul" stadionunda sonuncu mitinqi 2019-cu il yanvarın 19-da Milli Şura keçirib. Bu, 2019-cu ildə BŞİH ilə razılaşdırılan yeganə aksiya olub. Paytaxt hakimiyyəti Milli Şuranın yanvarın 26-da, fevralın 23-də, martın 2-də, aprelin 6-da, aprelin 20-də, mayın 5-də və mayın 11-də eyni stadionda keçirmək istədiyi mitinqlərə icazə verməyib.

## Bəxtiyar Sadıqov: "Hazırda ölkəmizdə mitinq keçirməyə heç bir zərurət yoxdur"



Müsavat Partiyasının, Qarabağ Komitəsinin, Azərbaycan Xalq Hərəkatının Yasamal rayonundakı İdman-Sağlamlıq Kompleksinin stadionunda və başqa məkanlarda aksiyalar üçün müraciətlərinə də meriyadan mənfi cavab gəlib.

Ekspertlər mitinq yerinin təmir üçün qapadılması səbəbindən iqtidara əlavə tənqidlər olacağı qənaətindədirlər. Sosial şəbəkələrdə müxalif düşərgə əslində təmir adı ilə "sonuncu qalaları"nın dağıdıldığını bildirirlər. Artıq beynəlxalq qurumlara bununla bağlı müraciətlərin ediləcəyi barədə mövqelərə də rast gəlmək dəyik.

**YAP-çı deputat, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov deyilənlərə sərt münasibət sərgilədi:** "Azərbaycanda bir konstruktiv müxalifət var, bir də radikal. Sentyabrın 11-də Əli Əhmədovun iştirakı ilə tədbir keçirildi. Bütün müxalif qüvvələrlə, siyasi partiyalarla hökumətin dialoqa hazır olduğu bəyan edildi. Buna da konstruktiv müxalifət müsbət cavab verdi. Azərbaycanda mətbuat və söz azadlığı ilə bağlı heç bir problem yoxdur. Bu gün ölkəmizdə hər hansı bir partiyanın fəaliyyətinə maneçilik törədilmir. Kim istəyirsə, sosial şəbəkələrdə fikrini ifadə edir, mediada da istənilən şəxs azad şəkildə fikirlərini, düşüncələrini deyir. İstədikləri vaxt müxalif qüvvələr yığıncaqlarını keçirirlər. Olan bir sözü deməklə kiməsə nəyisə çatdırmaq istəyirsənsə, orada da heç bir problem yoxdur. Belə bir məqamda hökmdür ki, mitinq keçirəsən? Mitinq hansı zərurətdən yaranıb? Mitinqin mənası nədir? Azərbaycan iqtidarı ilə həmin radikal müxalifət arasında olan ən ciddi fərq odur ki, ölkə iqtidarı qurucudur. Tikir, qurur, abadlaşdırır, insanların istədiyini həyata keçirir. Radikal müxalifət isə öz mövcudluğunu göstərmək üçün ancaq mitinq yolunu tanıyır. Gəlsin orada populist çıxışlar etsin, şər-böhtan danışsın. Bu düşərgə öz fəaliyyətini, mövcudluğunu ancaq mitinq yolu ilə təsdiq etmək istəyir. Əgər burada ehtiyac varsa ki, təmir aparılsın, ora abadlaşdırılsın, bu olmamalıdır? Burada nə var axı? Əgər Avropa buna etiraz etmək istəyirsə, o zaman demək, Avropa Azərbaycanın inkişaf etməsini istəmir. İdman qurğularının olması və insanların ondan istifadə etməsində pis nə var ki? Nə vaxtsa bu təmir, yenidənqurma getməlidir də. Buna görə Avropa etiraz etmək istəyirsə, etsin. Onda biz tikməyək, qurmayaq ki, Avropa buna etiraz edəcək. Bunu qəbul etmək mümkün deyil. Əvvəlki fikrimə bir daha qayıdıram ki, hazırda ölkəmizdə mitinq keçirməyə heç bir zərurət yoxdur. Əgər sən öz varlığını təsdiq etmək istəyirsənsə, nəzərə al ki, heç stadionu belə doldura bilmirsən. Bir cüt, bir tək adam gəlir. Sən öz zəifliyini, sosial bazanın olmadığını göz önündə sübut edirsən. Belə olan halda hesab edirəm ki, qabağı qışa gedir, idman meydançaları indi təmir olunmalıdır. Çünki yay vaxtı insanlar elə yerlərə daha çox gedirlər, yəni buna ehtiyac görürlər. Ona görə də stadionun təmiri normaldır. Radikal müxalifət bundan inciməməlidir. Bir az səbir etsin. Həm də bəhanə deyil, əsas tapsın. Bundan sonra mitinq keçirəndə əsaslarını göstərə bilsin. Azərbaycan iqtidarı haradasa nəsə təmir edəndə Avropa-filanla məsləhətləşməli deyil. Öz işini görməlidir. Necə ki də görür".

**Deputat Azərbaycana mitinq meydanının bağlanması səbəbindən təzyiqlərin gələcəyini düşünmür:** "O qurumlar ki, ölkəmizə qarşı hər zaman qərəzli mövqedən çıxış edirlər, onlar daim bəhanə tapırlar. Heç bir bəhanə tapmayanda da bizim "Beşinci kolon"un göndərdikləri donoslar onlara bəs edir. Amma Azərbaycana təzyiq etmək, təsir göstərmək mümkün deyil. Azərbaycan müstəqil dövlətdir, demokratiya yolu ilə gedir. Ölkəmiz bu dəqiqə ən mühüm problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə çözülməsi ilə məşğuldur. Əgər Avropa ölkəmizə kömək etmək istəyirsə ki, Azərbaycan sürətlə inkişaf etsin, o zaman ilk növbədə, münaqişənin həllinə kömək etməlidir. O problemi ki, Avropa, ATƏT öz üzərinə götürüb, münaqişənin sülh yolu ilə həllinə kömək etsin. Ondan sonra Azərbaycanda inkişaf daha sürətli olacaq, proseslər də uğurla gedəcək. Avropa bəhanə axtarmasın. Konkret olaraq, kömək etmək istəyirsə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə kömək etsin".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Etibar Məmmədovla bağlı 16 ilin sirri açıldı

## AMİP rəsmisi: "Müxalifətin vahid namizədi kimi Etibar Məmmədovun irəli sürülməsi razılaşmasına sabiq prezident Ayaz Mütəllibov da qoşulmuşdu"

**Azərbaycanda seçkilərə və seçkilər zamanı siyasi proseslərə xarici müdaxilələr mövzusunda siyasi partiyaların keçirdiyi dəyirmi masada maraqlı açıqlamalardan birini deputat Qüdrət Həsənquliyev verib. O qeyd edib ki, seçkilərə xaricdən müdaxilələr əvvəllər də olub. Məsələn, 2003-cü il prezident seçkilərində AMİP lideri Etibar Məmmədovun prezidentliyə namizəd olmasını xaricdən istəmişdilər. Deputat bu fikirləri hazırda xaricdə yaşayan keçmiş AXCP fəali Qorxmaz Əsgərovun bu yaxınlarda dediklərinə istinadən dilə gətirdiyini vurğulayıb. E.Məmmədovun namizəd olmasını ABŞ Milli Demokratiya İnstitutunun istədiyi iddia edilir.**

Bu iddialarla bağlı **AMİP katibi Əli Orucov** "Yeni Müsavat"a açıqlama verib. Ə.Orucov bildirdi ki, 2003-cü ildə Etibar Məmmədovun prezidentliyə namizəd olmasının xaricdən istənilməsi ilə bağlı səsləndirilən iddialar tamamilə əsasız və uydurmadır. Etibar Məmmədov 2003-cü ilədək prezidentliyə iki dəfə 1992 və 1998-ci illərdə namizəd irəli sürülüb. Nə həmin seçkilərdə, nə də 2003-cü ildə AMİP liderinin namizəd olmasında hər hansı xarici qüvvənin istəyi, təsiri olmayıb: "Etibar Məmmədov 1992-ci il seçkilərində mərhum prezident Əbülfəz Elçibəyin rəqibi olsa da seçki marafonunda axıradək getməyib və namizədliyini geri götürüb. 1998-ci il prezident seçkilərində isə hətta bizə münasibəti heç də yaxşı olmayanlar da etiraf etdilər ki, təxminən 1 milyondan çox Azərbaycan seçicisi Etibar Məmmədova səs vermişdi. 2003-cü ildə də Etibar Məmmədovun namizədliyinin irəli sürülməsi zərurətdən doğmuşdu. Ölkənin müxalifət düşərgəsi Etibar Məmmədovun namizədliyi üzərində dayanmışdı. Hətta AXCP, Müsa-



vat, ADP və AMİP liderlərinin Londonda keçirilən zirvə toplantısında müxalifətin vahid namizədi kimi Etibar Məmmədovun irəli sürülməsi barədə ilkin razılığa gəlinmişdi. Sonradan bu razılaşmaya Moskvada mühacirətdə olan sabiq prezident Ayaz Mütəllibov da qoşuldu. Lakin seçki dönəmində iqtidarın təhriki və daxili siyasi yanlışlıqlarla Müsavat başqanı İsa Qəmbər bu razılaşmanı pozdu. Səsverməyə sayılı günlər qalmış ABŞ-da olan ADP sədri Rəsul Quliyev də razılaşmadan imtina edərək "Bizim Azərbaycan" seçki blokunun namizədi İsa Qəmbəri dəstəklədi. Sonralar Rəsul Quliyev aldadıldığını və Etibar Məmmədovun namizədliyini deyil, İsa Qəmbərin namizədliyini dəstəklədiyinin səhv addım olduğunu etiraf etdi, peşmançılığını açıq şəkildə bəyan etdi".

**Ə.Orucovun sözlərinə görə, namizədlər öz aralarında onu da razılaşdırmışdılar ki, namizədliyi qeydiyyata alınmayan Rəsul Quliyevin namizədliyinin qeydiyyata alınması üçün birgə mübarizə aparıb təzyiq göstərilsin:** "Həmçinin namizədlər ayrılmış efir vaxtından yararlanıb qərarlarını son efir vaxtında xalqa elan etsin. Həmçinin qarşılıqlı əks-təbliğat aparılmasın, seçki komissiyalarında komissiya üzvləri koordinasiyalı fəaliyyət göstərsin və sair. AMİP-dən başqa digər iki partiya Rəsul Quliyevin qeydiyyatı ilə bağlı ADP-nin etiraz aksiyalarına qoşulmadı. Proses iştirakçılarının hamısı şükür ki, sağdırlar. Özləri də yəqin həmin dövrə bir daha aydınlıq gətirə bilərlər. Buna baxmayaraq, Etibar Məmmədov böyüklük göstərib öz iddiasından bir addım geri çəkilərək müəyyən şərtlər daxilində İsa Qəmbərin vahid namizəd kimi dəstəklənməsinə razılıq verdi. Hətta bununla bağlı tanınmış hüquqşünas Fuad Ağayev və Qulamhüseyn Əlibəyliyə sazişin şərtlərini hazırlamaq da həvalə olundu. Lakin İsa Qəmbər oktyabrın 9-da müttəfiqlərini də məlumatlandırmadan həm əldə edilmiş razılaşmanı pozdu, həm də müxalifətin vahid namizəd kimi seçkilərdə iştirakına imkan vermədi".

**AMİP rəsmisi qeyd etdi ki, 2003-cü ildə Azərbaycanda fəaliyyət göstərən beynəlxalq institutlar da, hətta bir sıra nüfuzlu ölkələrin səfirlikləri də müxalifətin vahid namizədlə seçkilərdə iştirakına çalışırdı:** "Amma təəssüf ki, yuxarıda xatırlatdığım məsələlər ucbatından bu alınmadı və nəticəsi də göz qabağındadır. Ola bilsin, Qüdrət Həsənquliyev və Qorxmaz Əsgərov həmin proseslərdən məlumatsızdırlar, ya da bunu ictimaiyyətə təhrif olunmuş şəkildə çatdırırlar".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 189 (739) 13 sentyabr 2019

# "Azərbaycan çox ciddi sınaqlar qarşısındadır"

## Eldar Namazov: "Ölkəmizə qarşı xarici təhlükələr çox ciddidir"

**Gündəmin əsas müzakirə mövzularından biri 11 sentyabrda Ana Vətən Partiyasının təşəbbüsü ilə "Ölkəmizdəki siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi" mövzusunda keçirilən dəyirmi masadır. Müzakirələrdə iştirak edənlərdən biri də Beynəlxalq və Strateji Tədqiqatlar Mərkəzinin direktoru Eldar Namazov olub. Politoloq "Yeni Müsavat"a olduqca maraqlı və dəyərli fikirlər söyləyib, ictimai-siyasi təşkilatlara mesajlar verib.**

***- Eldar bəy, uzun fasilədən sonra iqtidar və müxalifət düşərgəsinə aid olan təşkilatlar, vətəndaş cəmiyyətinin nümayəndələri bir araya gəldilər, müzakirələr apardılar. Dəvətlilər arasında olan ictimai-siyasi xadim kimi sizin dəyərləndirməniz necədir?***

- Mən bu tədbirə dəvəti xaricdə olanda aldım. Ukraynada böyük bir beynəlxalq konfransda iştirak edirdim. Orada bizim bölgəmizdə gedən proseslərlə bağlı geniş məruzə ilə çıxış etdim. Təbii ki, həmişə olduğu kimi, məruzəmdə əsas diqqət Qarabağ probleminə və işğal olunmuş ərazilərimizin azad olunmasına yönəlmişdi. Eyni zamanda İran ətrafındakı proseslərə də kifayət qədər böyük yer ayırmışdım. O vaxt telefonlarım qapalı idi. Tədbir başa çatandan sonra mən telefonu açanda WhatsApp-la mənə göndərilən dəvəti oxudum. Onda hələ konkret formatı və mövzunu dəqiqləşdirmək imkanım yox idi. Amma mənim ilkin reaksiyam çox müsbət oldu. Siz dediyiniz kontekstdə ki, uzun illərdir iqtidar və müxalifət arasında, vətəndaş cəmiyyətinin iştirakı ilə belə dialoqlar təşkil olunmurdu. Açığını deyim, mən beynəlxalq tədbirlərə tez-tez qatılıram və orada qaldırdığım məsələlər məhz Qarabağla, Bütöv Azərbaycan məsələsi, digər ümummilli problemlərimizlə bağlıdır. Azərbaycan üçün böyük geopolitik risklər mövcuddur. Ona görə də Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qəbul etməyən qonşularımız var. Eyni zamanda Azərbaycan üçün böyük şanslar yaranır. Xüsusən də nəzərə alsaq ki, Ermənistanda daxili vəziyyət necədir, Rusiya-Ermənistan münasibətlərində hansı ciddi problemlər meydana gəlib. İran ətrafında gedən prosesləri də əlavə etmək lazımdır. Bunlar hamısı göstərir ki, bizim üçün həm böyük risklər, eyni zamanda böyük imkanlar mövcuddur. Bu alovlanan proseslərdə ən pis halda biz çox böyük itkilərə məruz qala bilərik. Ən yaxşı halda isə biz nəinki Dağlıq Qarabağı azad edə, tarixi torpaqlarımızı, Zəngəzuru da qaytara, hətta 50 milyonluq Azərbaycan xalqının bir neçə əsr ürəyində bəslədiyi arzuların həyata keçməsinə, vahid, bütöv, böyük Azərbaycan dövlətinin yaranmasına da nail ola bilərik. Belə çətin və mürəkkəb proseslərin astanasında həmişə məni düşündürür ki, bəs bu risklərin qarşısını almaq və milli məqsədlərimizə çatmaq üçün biz daxilən hazırıqmı? Buna nail olmaq üçün ölkənin daxilində sabitliyə, milli birliyə nail olmaq lazımdır. İqtidar və müxalifət gərək bir yerdə hərəkət eləsin ki, biz qabaqdan gələn çox ağrılı prosesləri öz məqsədlərimizi həyata keçirib, güclü bir dövlət kimi çıxaq. Belə fikirlər məni düşündürdüyü bir məqamda Bakıdan belə bir formatda keçiriləcək toplantıya dəvət aldım.

***- Tədbirdə iştirak edərkən sizi narahat edən məsələlərlə bağlı sualınıza cavab tapa bildinizmi?***

- Mən öz çıxışımda da dedim ki, bu tədbirlər davamlı olmalıdır. Davamlı olmasa, biz elə bir görüşlə kifayətlənsək, deməli, dövlətimiz, millətimiz üçün vacib olan məqsədlərə çata bilməyəcəyik. Əgər bu görüşlər davamlı xarakter daşımasa, format genişlənməsə və hamı bu prosesə cəlb olunmasa, hətta qəbul olunmuş bəyanat da mənasız olacaq,.. Hər halda, arzularımla üst-üstə düşdüyünə görə mən o tədbirə qatıldım və çıxışda da qeyd etdim ki, burada iştirakım məhz formata, bu ideyanın özünə dəstək xarakteri daşıyır. Təbii ki, biz vaxtilə belə tədbirlərin keçirilməsini arzulayırdıq, təklif edirdik. Orada da hansı məsələlər ətrafında müzakirələrin aparılması ortaya çıxanda, mən həmişə deyirdim ki, biz ümummilli məsələləri önə çəkməliyik, ancaq ardıcıllıq o qədər də əhəmiyyət kəsb eləmir. İstənilən mövzudan başlamaq olar, təki bu proses başlasın və bu müzakirələr səmimi, davamlı olsun. Onda biz addım-addım ölkənin daxilində birliyi yarada bilərik. Ona görə də indidən, hələ ilk tədbirdən sonra mən hansısa bir proqnoz vermək istəmirəm. Sadəcə olaraq, öz mövqeyimi və bu məsələyə münasibətimi çıxış zamanı açıq bəyan etdim və bu gün də sizinlə söhbətdə təkrarlayıram. Azərbaycan çox ciddi bir sınaqlar qarşısındadır! Dünyada gedən proseslər hər bir ölkəni sınaqdan keçirəcək. Bizim ölkəmiz, xalqımız üçün həm çox böyük risklər mövcuddur, eyni zamanda böyük şanslar və imkanlar açılır. Biz gərək daxildə, öz aramızda bir razılığa gələk və vahid mövqedən çıxış edək. Bunun üçün də təbii ki, ölkənin daxilində hələ çox ciddi işlər görülməlidir. Biz hələlik o vəziyyətdən kifayət qədər uzağıq. Azərbaycanda milli birliyi yaratmaq üçün gələcəkdə hələ çox ciddi addımlar atılmalıdır. Həm daxili siyasət, həm insanların haqları, həm sosial problemlərin həlli, həm də iqtidar-müxalifət münasibətləri ilə bağlı.

***- Bəzi siyasilər tədbirdə iştirak etmədilər, bəziləri isə dəvət olunmadı, kənarda qaldı. Gələcəkdə tam milli birlik formatını ortaya qoymaq üçün bu məsələləri necə çözmək olar?***

- Mənim bu mövzuda uzun illər boyunca müəyyən təşəbbüslərim, təkliflərim olub. Dəfələrlə qeyd eləmişəm ki, beyinlərdə elə bil vətəndaş müharibəsi gedir. 90-cı illərin əvvəllərində belə bir durum yaranmışdı, vətəndaş müharibəsi astanasındaydıq. O vaxt böyük bəlalardan qurtara bildik. Şükür Allaha ki, belə toqquşmalar lokal xarakter daşıdı və qısa müddət davam etdi. Ondan sonra isə sanki beyinlərdə vətəndaş müharibəsi bu günə kimi davam edir. Vətəndaş müharibəsində heç vaxt qalib olmur. O mənada ki, qalib özünü qalib kimi apara bilməz. Qalib gərək məğlub olan tərəfin hüquqlarını müdafiə etsin. Onları təmin etsin ki, artıq beyinlərdən vətəndaş müharibəsi sindromu çıxsın. Mən həmişə deyirdim ki, Prezident Administrasiyasında keçmiş prezidentlər Ayaz Mütəllibovun, Əbülfəz Elçibəyin və Heydər Əliyevin şəkilləri olmalıdır ki, binaya daxil olan hər bir şəxs görsün ki, bu ölkədə artıq vətəndaş müharibəsi sindromuna son qoyulub və partiya mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquqları təmin olunur. Mən illər öncə bunu deyirdim. İndi də bu fikirdəyəm ki, biz iqtidar-müxalifət münasibətlərini tamamilə yeni müstəvidə qurmalıyıq. Təbii ki, elə qruplar ola bilər ki, onlar bu prosesə əvvəldən qoşula bilərlər. Həm də bəlkə kimlərinsə daxilində inamsızlıq o dərəcədə güclüdür, ümumiyyətlə, onların siyasi opponentlərlə bağlı mövqeləri o qədər radikaldır ki, onlar ola bilsin bu prosesə əvvəldən qoşulmasınlar. Ancaq burada söhbət partiya liderlərindən getmir, insanlardan gedir. Əgər belə bir siyasət yürüdülsə və cəmiyyət bunu qəbul etsə, mən əminəm ki, ölkəmizin daxilində həm sabitliyə, həm də sivil iqtidar-müxalifət münasibətlərinə nail ola bilərik.



**"Biz iqtidar-müxalifət münasibətlərini tamamilə yeni müstəvidə qurmalıyıq"**

***- Keçirilən tədbirin adı diqqət çəkdi: "Ölkəmizdəki siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi". Necə bilirsiniz, hazırda xarici güclərin Azərbaycanla bağlı ciddi planları varmı? Onların marağı, məqsədi haqda nə demək olar?***

- Mən əminəm ki, bu təhlükələr çox ciddidir. Təbii, mən o qənaətdə deyiləm ki, bu təhlükə xaricdə kimlərinsə rəsmilərə ünvanlı söyüşləri ilə bağlıdır. Əslinə qalsa, daha ciddi xarici təhlükələr mövcuddur. Azərbaycanın müstəqilliyini qəbul etməyən qonşularımız var. Elə bilirsiniz "Gülüstan" və "Türkmənçay" müqaviləsi sindromu bitib? Biz İrandan tez-tez səslər eşidirik ki, "Şimali Azərbaycan bizim ərazilərimizdir". Rusiyadan səslər eşidirik ki, bu, keçmiş SSRİ-nin ərazisidir və Rusiyanın təsir dairəsinə daxildir, Rusiya burada əsas söz sahibi olmalıdır. Həmçinin bizə qonşu olan bədnam millət torpaqlarımızı işğal edib və ərazilərimizdən çıxmaq fikrində deyil. Yəni belə mürəkkəb geopolitik, coğrafi bir durumdayıq. Ona görə də xarici təhlükələri qulaqardına vurmaq olmaz, bu, çox ciddidir! Biz bu məsələlərə ciddi yanaşmasaq, bizi daha böyük bəlalar gözləyə bilər! Dediyim kimi, bu təhlükələrlə yanaşı, bizim çox ciddi imkanlarımız da var. Bu proseslərdə nəinki Qarabağı qaytara, nəinki tarixi torpağımız olan Zəngəzuru qaytara bilərik, hətta daha böyük məqsədlərə çatmaq üçün bizim kifayət qədər imkanlarımız mövcuddur. Biz buna nail olmaq üçün ilk növbədə ölkə daxilində dediyim birliyi və sabitliyi yaratmalıyıq. Eyni zamanda bizim milli maraqlarımızla üst-üstə düşən güclü, qüvvətli dövlətlər var, onların maraqları bizim maraqlarımızla üst-üstə düşür. Biz onlarla çox sıx əməkdaşlıq etməliyik və bu məqsədlərə çatmaq üçün onların da dəstəyindən yararlanmalıyıq.

***- Ancaq təəssüf doğuran münasibət də müşahidə olunur. Məsələn, bəzi siyasilər iqtidarın səmimiyyətinə inanmadığını bildirir, həmçinin bildirilir ki, hakimiyyət çətinə düşdüyü üçün müxalifətlə masa arxasında oturmaq istəyir. Eyni zamanda görüşə gedənlər ittiham olunur, onlara deputat mandatı veriləcəyi iddiası səslənir. Bu yanaşmaları necə dəyişmək olar?***

- Bu, 90-cı illərin əvvəllərindən bu günə kimi beyinlərdə gedən vətəndaş müharibəsinin nəticəsidir. Bu sindrom hələ də yaşayır və davam edir. Bu yanaşma müxtəlif siyasi qurumlar, fərdlər, konkret insanlar üçün o qədər bəlalar gətirib ki, insanların elə il addımdan buna inanması və proseslərə qoşulmasını gözləmək çətindir. Mən açıq dedim ki, heç bir proqnoz verə bilmərəm. Mən yalnız öz mövqeyimi və arzularımı ifadə edirəm. Belə bir təkliflərə inamsızlıqla yanaşan qüvvələri də anlayıram. Ancaq fərq yalnız ondan ibarətdir ki, mən Azərbaycan xalqını gözləməyən həm təhlükələri, həm də imkanları nəzərdən keçirib o qənaətə gəlmişəm ki, riskləri dəf etmək üçün və Qarabağla, Zəngəzurla və digər məsələlərlə bağlı istəklərimizə nail olmaq üçün bizim milli birliyi yaratmaqdan başqa yolumuz yoxdur. Ona görə də çətin də olsa, ağrılı da olsa, buna çox tərəfdən maneələr də olsa, buna nail olmalıyıq. Təkcə müxalifətin inamsızlığından söhbət getmir. Mən oxudum ki, hakimiyyətin içindən də bu prosesə soyuq baxan qüvvələr kifayət qədər çoxdur. Bütün bunlara baxmayaraq, hesab edirəm ki, əgər biz xalqımızı, millətimizi qorumaq istəyiriksə, işğal olunmuş torpaqlarımızı azad etmək istəyiriksə, bizim bu prosesə başlamaqdan və ölkə daxilində sabitliyi və milli birliyi yaratmaqdan başqa yolumuz yoxdur.

***- Deməli, hazırda öncə seçki, yaxud öncə hakimiyyət yox, öncə Vətən məsələsi gündəmdə olmalıdır, eləmi?***

- Sözsüz. Burada hansı vəzifəni, yaxud mandatı düşünmək olar? Siz bu söhbəti açırsınızsa, bir məsələni deyim. Mənim ətrafım, mənimlə əməkdaşlıq edən adamlar bilirlər ki, şəxsən mənim nəinki qarşıdan gələn, bundan əvvəlki parlament seçkilərində də heç bir şəxsi marağım olmayıb. Ümumiyyətlə, mən 1999-cu ildə könüllü olaraq istefaya gedəndən bəri yalnız 2005-ci ildə parlament seçkilərinə qatılmışam. Bütün başqa seçki proseslərində mən ya kimlərəsə dəstək vermişəm, ya da köməklik etmişəm, yaxud da heç bir prosesdə iştirak etməmişəm. Ona görə də mənim bu məsələlərə yanaşmamda şəxsi maraq heç bir rol oynamır. Bu mövzu ilə bağlı da yuxarıda danışdım. Tədbirə dəvət alanda Qarabağ probleminin həlli, Cənubi Azərbaycan məsələsi ilə bağlı məruzə edirdim və tribunadan enəndən sonra telefona baxdım və dəvət gəldiyini oxudum. Dəvətə də münasibətim məhz milli maraqları, milli istəkləri həyata keçirmək prizmasından formalaşıb. Əgər bizim daxilimizdə birlik olmasa, biz bunun üzərində bir yerdə çalışmayacağıqsa, mənim çağırışlarım, dediklərim bir nağıl olacaq, ya da biz birliyi yaradıb bu arzuları, istəkləri reallaşdıra biləcəyik. Təbii ki, istəyirəm mənim torpaqlarımızla, dövlətimizlə bağlı istək-arzularım və milyonlarla azərbaycanlının istək-arzuları həyata keçsin. Həyata keçməyin də şərti və yolu milli birliyə nail olmaqdan keçir.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# Çoxsaylı monoloqlar toplantısı

**Xalid KAZIMLI**

**Əslində srağagünkü tədbiri iqtidar-müxalifət dialoqu adlandırmaq olmazdı. Təkcə ona görə ki, bu, iqtidar-müxalifət dialoquydusa, orada QHT rəhbərlərinin, media kapitanlarının nə işi vardı?**

İqtdar-müxalifət dialoqu o olar ki, hər iki tərəfdən 3 (və ya 5) sanballı adam qarşı-qarşıya oturar, mikrofonsuz, asta səslə hansısa məsələni müzakirə edərlər. Yoxsa onlarla video və fotokameraların olduğu, 100-ə yaxın adamın iştirak etdiyi toplantı ayrı-ayrı monoloqlardan ibarət oldu.

Bu, bir iclas idi, konkret də mövzusu vardı: "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi". Vəssalam.

Həmin toplantıda "Yeni Müsavat" media qrupunun rəhbəri Rauf Arifoğlunu əvəz edirdim. R.Arifoğlu başqa bir toplantıya qatılmışdı. AVP sədri Fəzail Ağamalının təşəbbüsüylə, baş nazirin müavini Əli Əhmədovun (eyni zamanda YAP sədrinin müavini) iştirakıyla keçirilən tədbirdə önümdəki bloknota bəzi qeydlər etmişəm. Bunlar toplantı barədə təəssüratlarımdır:

**1.**AXP sədri Pənah Hüseynin çıxışı sərt oldu. O, "radikal müxalifət" anlayışına alternativ səsləndirdi: "Radikal iqtidar". Pənah bəy reqlamenti ikiqat aşdı və "başqalarının da əvəzindən danışacam" dedi.

**2.**Çıxış üçün reqlament 5 dəqiqədir. Toplantıda iştirak edən və önündə mikrofon olan adamların hamısı çıxış eləsə, 4-5 saat vaxt lazımdır.

**3.**Çıxıçıların sinəsi doludur. Hamısı çox və hər şeydən danışmaq istəyirlər.

**4.**Aparıcı partiyaların toplantıda iştirak etməməsi yaxşı görünmür. AXCP dəvət edilməyib, anladıq, bəs Müsavat, ReAl, KXCP, AMİP-in təmsilçiləri nədən gəməyib? F.Ağamalı deyir, hamısını dəvət edib.

**5.**Pənah Hüseyn, Sərdar Cəlaloğlu və Əli Əliyev müxalifətin boş qoyduğu meydançanı yaxşı doldurur, müxalif düşüncəni parlaq təmsil edirlər.

**6.**Deyəsən, hər kəsin dərdi özünə dəvədir. Müzakirəyə təqdim olunan mövzu qıraqda qalıb, müxalifətçilər siyasi məsələlərdən, hüquq müdafiəçiləri isə öz sahələrinə aid məsələlərdən danışırlar. Media kapitanlarına söz verilsə, yəqin ki, onlar da reklam bazarının olmamasından danışacaqlar.

**7.**Novella Cəfəroğlu QHT-lərə ayrılan qrantlardan danışarkən belə dedi: "QHT sədrləri bu pullarla bir maşın alırdılar, bir də 200 dollarlıq kostyum". Yəni o pullar ölkədə inqilab etmək üçün deyildi.

**8.**Sərdar Cəlaloğlu 4-5 mövzunu bir-birinə qatıb sərt çıxış etdi, radikal çıxışların auditoriyasının geniş olduğunu söylədi, arada hirsləndi: "İstəyirsiniz, danışmayım, çıxım gedim".

**9.**Nəyə görəsə çıxış edənlər RF-nin Təhlükəsilik Şurasının rəhbəri Nikolay Patruşevin soyadını "Petruşev" deyirlər. "Petruşka" demədiklərinə şükür.

**10.**Fazil Musatafa dedi ki, ölkənin ən böyük problemi nə demokratiyadır, nə də korrupsiyadır, ən mühüm məsələ ölkənin təhlükəsizliyidir. Deputat siyasi müxalifətdənsə dini müxalifətin daha təhlükəli olduğunu bildirdi.

**11.**Pənah Hüseyn Fazil Mustafanın demokratiya və korrupsiya problemi barədə dedikləri ilə razılaşmadığını bildirdi.

**12.**Eldar Namazov, Aynur Camalqızı, Tural Abbaslı, Qulamhüseyn Əlibəyli reqlamanentə riayət etdilər.

**13.**Toplantı əsnasında üz ifadəsindən bu tədbiri təşkil etdiyinə peşman kimi görünən Fəzail Ağamalı axırda bu cür yığıncaqların davamlı olacağını bildirdi.

**14.**Baş nazirin müavini Əli Əhmədov təmsil etdiyi hakimiyyətin ünvanına səslənən sərt tənqidləri təmkinlə qarşılasa da, sona yaxın Sərdar Cəlaloğluna sərt təpki verməli oldu.

**15.**Telejurnalist Mirşahin çıxış edərkən Sərdar Cəlaloğlunun müdaxiləsi və replikası heç yaxşı olmadı. O ifadənin bu qədər çeynənməsi artıq iyrənc şəkil alır. Başqa bir arqument, irad, ifadə yoxdurmu? Hamı nədən eyni cümləni işlətməlidir? Beyinə başqa bir tənqidi cümlə gəlmirmi?

Bu qədər.

Başqa qeydlərim də vardı, amma onları burada yazmağın yeri yoxdur. Ümumi təəssüratları yazmaq lazımdır.

Gerçəkdən də belə toplantıların tez-tez olması vacibdir. Sözlə dolmuş ürəklərin vaxtaşırı boşalması üçün bir diskussiya, məsləhət-məşvərət klubu olmalıdır.

İndi baxıram ki, sosial şəbəkədə toplantıda iştirak edən müxalifətçilərə qarşı yazılar yer alır, onlara dodaq büzürlər. Əbəs yerə. Adlarını yuxarıda çəkdiyim müxalifətçilər ortaya prinisipial mövqe qoydular, lazım olduğundan da sərt danışdılar. Bəzi partiyaların öz üzərlərinə başqa siyasətçilərə "müxalifətçi vəsiqəsi" vermək funksiyası götürməsi yanlışdır.

# Hakimiyyət hansı xarici müdaxilədən şübhələnir?

## YAP deputatından maraqlı açıqlamalar

**"İstənilən siyasi partiya ölkənin maraqlarını üstün tutmalıdır. Təəssüflə qeyd etmək istəyirəm ki, xaricdə mühacir statusu alan bəzi şəxslər Azərbaycanda siyasi proseslərdə yaxından iştirak etməyə cəhd edirlər". Bunu hakim Yeni Azərbaycan Partiyasının (YAP) icra katibi Əli Əhmədov Azərbaycanda fəaliyyət göstərən bir sıra siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, media təmsilçilərinin və müstəqil siyasi ekspertlərin iştirakı ilə "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda dəyirmi masada deyib.**

**Ə. Əhmədov qeyd edib ki, həmin şəxslər asanlıqla xarici xüsusi xidmət orqanları tərəfindən ələ alına bilər:** "Ona görə də onların siyasi proseslərə müdaxiləsi təhlükəlidir. Bəziləri "Youtube"da guya izləyicilərinin hesabına gəlir əldə edirlər. Bu, əsassızdır, araşdıra bilərsiniz. Hakimiyyət iddiasında olan partiyalar xalqın marağından çıxış etməlidir, hanısa xarici qüvvənin yox. Mühacirlərin əsas işi Azərbaycan dövlətini, prezidentini nüfuzdan salmaqdır. Çünki Azərbaycan güclənib, qüdrətlənib. Xarici qüvvələr Ermənistanı "demokratik", Azərbaycan isə "anti-demokratik" göstərməyə cəhd edirlər. Bütün bu cəhdlər əbəsdir. Sağlam düşüncəli qüvvələrin milli maraqlar naminə birləşməsi çox önəmlidir. Xarici qüvvələr seçkilər vasitəsilə də ölkə daxilinə müdaxilə etməyə cəhd edə bilərlər. Bu təcrübə var".

Qeyd edək ki, dəyirmi masanın sonunda qəbul olunan bəyanatda da xarici qüvvələrin seçkilər ərəfəsində Azərbaycandakı daxili siyasi proseslərə müdaxilə edə biləcəyi və bunun yolverilməzliyi vurğulanır.

Bütün bunlar isə bir sualı gündəmə gətirir: Azərbaycanda seçkilər ərəfəsi daxili siyasi proseslərə müdaxilə etməsindən şübhələr yaranan konkret hansı ünvan və ya ünvanlardır? Söhbət hansısa xarici dövlətlərdən, beynəlxalq təşkilatdan, yoxsa xaricdə yaşayan bir qrup azərbaycanlıdan gedir?



**YAP İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə "Yeni Müsavat"a öncə bildirdi ki, müxtəlif siyasiyönümlü və müxtəlif siyasi cəbhədə dayanan partiyaların dəyirmi masaya yığışaraq Azərbaycandakı siyasi proseslərə xarici müdaxilənin yolverilməz olduğu barədə ümumi rəyə gəlməsi dəyərləndirilməlidir. Artıq inkişafın elə bir səviyyəsinə gəlib çatmışıq bütün cəmiyyət dərk edir ki, ölkədə bütün məsələlər ancaq daxili resurslara söykənərək həll edilməlidir:** "Xarici mərkəzlərin, xarici dövlətlərin, bəzi beynəlxalq təşkilatların Azərbaycandaxili siyasi proseslərə müdaxilə etməsi yolverilməzdir. Ölkənin təcrübəsi var, müstəqilliyimizi yeni qazandığımız dövrdə xarici müdaxilələrin olmasının acı təcrübəsi var. Hesab edirəm ki, vaxtaşırı bu məsələnin gündəmə gəlməsi, bu məsələ barəsində ümumi razılığa gəlinməsi əhəmiyyətli hadisədir. O ki qaldı xarici müdaxilə deyəndə hansısa xarici dövlətlər, beynəlxalq təşkilatlar, yoxsa xaricdəki bəzi azərbaycanlılardan söhbət getməsinə, burada bütün faktorlar nəzərdə tutulur. Burada həm xarici ölkələrin Azərbaycandaxili siyasi proseslərə müdaxilə etməsinə yolverilməzliyi, həm xaricdəki müəyyən mərkəzlərin demokratiya pərdəsi altında Azərbaycandakı proseslərə müdaxilə etmək istəməsi və sair nəzərdə tutulur".

**Deputat qeyd etdi ki, siyasi partiyalar ilk növbədə cəmiyyətə, seçicinin gücünə arxalanaraq öz proqramının təbliğinə, öz namizədlərinin seçilməsinə diqqət etməlidirlər:** "Çox təəssüf ki, hər seçki ərəfəsində Azərbaycanda xaricdən müdaxilə cəhdləri müşahidə edilir. Yaxud ayrı-ayrı siyasi qruplar ya xarici səfirlikləri, ya xaricdəki müəyyən dairələri Azərbaycanın daxilindəki siyasi proseslərə zorla cəlb etdirməyə çalışırlar. Yəni bu məsələlər daim önə çıxır. Sentyabrın 11-də keçirilən dəyirmi masa bir daha göstərdi ki, Azərbaycan demokratiyanın inkişafında elə mərhələyə gəlib çatıb siyasi qüvvələr ümumilikdə bir qüvvə kimi bu cür proseslərin yolverilməzliyini qəbul edirlər".

**"Xaricdən müdaxilə olarsa, daxildə hansısa siyasi qüvvələr tapılarmı onlarla iş birliyinə getsinlər, həmin müdaxiləyə dəstək versinlər" sualına A.Mirzəzadə belə cavab verdi:** "Azərbaycandan köçərək xaricdə yaşayan insanların çox az qismi bu gün anti-Azərbaycan mərkəzlərin əlində alətə çevrilib. Onlar mənəviyyatı, mədəniyyəti, vətənpərvərliyi bir kənara qoyaraq Azərbaycana böhtan atmaqda, Azərbaycanı çirkaba bulaşdırmaq üçün bütün cəhdləri etməkdədirlər. Azərbaycan cəmiyyəti onları yaxşı tanıyır və bütün cəhdlərə baxmayaraq onlar heç bir dəstək ala bilmirlər. Eyni zamanda seçkilər ərəfəsində seçkilərdə iştirak eləyən müəyyən qruplar xaricdən müxtəlif dəstəklər əldə etməklə öz maraqlarına uyğun siyasət yürütməyə çalışırlar. Ancaq onların da gücü azdır, cəmiyyət onların arxasınca getmir. Ən əsası cəmiyyət bu məsələdə heç bir təxribata uymur, cəmiyyəti aldatmaq qeyri-mümkündür".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 189 (7359) 13 sentyabr 2019

**Sentyabrın 12-də Bakıda Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının növbəti illik toplantısı keçirilib. Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı ilə gerçəkləşən bu mötəbər tədbirdə Asiya, Avropa və Afrikanın 20-yə yaxın ölkəsindən, o cümlədən Türkiyə, Hindistan, Banqladeş, Nepal, Kenya, Zimbabve, İraq, Kosovo, Makedoniya, Şri-Lanka, Tanzaniya, Uqandadan nümayəndələr, həmçinin ölkəmizin ictimai rəyə təsir göstərən kütləvi informasiya vasitələrinin təmsilçiləri qatılıb. Toplantıda Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, BMT, Avropa Şurası kimi beynəlxalq təşkilatların, o cümlədən yerli media qurumlarının rəhbərləri və ekspertlər də iştirak edir.**



# Bakıda daha bir nüfuzlu beynəlxalq tədbir

## 20 ölkənin media kapitanları Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının toplantısında iştirak edir; **Əli Həsənov:** "Sosial şəbəkələrə dövlət səviyyəsində verilən əhəmiyyətin nəticəsidir ki..."

**Mətbuat Şurasının sədri Əflatun Amaşov** tədbirin əhəmiyyətini vurğulayıb, beynəlxalq toplantının Azərbaycanda keçirilməsindən məmnunluğunu ifadə edib. Ə.Amaşov bildirib ki, Ümumdünya Mətbuat Şuraları Assosiasiyası 1992-ci ildə yaradılıb. ABŞ-ın bir sıra ştatlarının, Türkiyə, Hindistan, Pakistan, Banqladeş, Nepal, Zimbabve, Keniya və digər ölkələrin jurnalistləri belə bir qurum yaradıblar. O vaxtdan indiyədək quruma üzv ölkələrdə tədbirlər keçirilir və jurnalistlərin qarşılaşdığı problemlər, informasiya əldə etmələri ilə bağlı yaranmış çətinliklərin aradan qaldırılması ilə bağlı təkliflər səsləndirilir. Ümumilikdə toplantıda dünyada medianın inkişaf meyilləri müzakirə olunur.

Mətbuat Şurasının sədri Azərbaycanda media sahəsində əldə edilən uğurlar barədə danışıb. Bildirib ki, 1998-ci ildə ölkəmizdə senzura ləğv edilib, kütləvi informasiya vasitələri ilə bağlı qanunvericilik bazası təkmilləşdirilib, media tam müstəqildir. Azərbaycanda internet media da fəaliyyətini uğurla davam etdirir. Ölkəmizdə 3 milyona yaxın insan sosial şəbəkədən istifadə edir. Azərbaycanda etnik qruplar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Media da bu istiqamətdə dövlət siyasətini dəstəkləyir.

"Azərbaycanda azad sözə və fikrə dövlət səviyyəsində yüksək əhəmiyyət verilməsinin nəticəsidir ki, transmilli media qurumlarının ölkə ərazisində verilişlərinin yayılmasında heç bir məhdudiyyət yoxdur, eyni zamanda vətəndaşların "Facebook", "Twitter", "Youtube", "Instaqram" kimi sosial şəbəkələrə sərbəst çıxışı təmin edilmişdir".

**Bunu Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxışı zamanı deyib.** Ə.Həsənov **Azərbaycan milli mətbuatının müstəqillik dövründə bu günə qədər keçdiyi tarixi yolunu xatırladaraq bildirib:** "Bu gün Azərbaycanda fəaliyyət göstərən KİV-lər cəmiyyətdə baş verən hadisələri, dövlətin həyata keçirdiyi siyasəti, o cümlədən beynəlxalq aləmdə cərəyan edən prosesləri sərbəst və müstəqil şəkildə araşdırır, əhalinin rəyini öz səhifələrində əks etdirərək hakimiyyətin nəzərinə çatdırır. KİV-lər istədiyi informasiyaları sərbəst şəkildə toplayıb yaymaq, o cümlədən iqtidarın apardığı siyasəti tənqid etmək və yaxud dəstəkləmək imkanına malikdir.

Hazırda Azərbaycanda rəsmi qeydiyyatdan keçmiş KİV-lərin ümumi sayı 5000-dən çoxdur. KİV-lərin kəmiyyət göstəricilərinə görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında birincilər sırasındadır. Ölkədə 40-dək gündəlik, 200-dən çox həftəlik və aylıq qəzet-jurnal və digər media nümunələri nəşr olunur. 300-ə yaxın xəbər və analitik internet saytı, 20-yə yaxın informasiya agentliyi, rayonlarda və bölgələrdə isə 100-ə yaxın KİV fəaliyyət göstərir.

Azərbaycanda 11 ümumrespublika, 4 peyk, 13 regional və 17 kabel televiziyası, 25 internet televiziyası,14 radio fəaliyyət göstərir. 2005-ci ildə ölkədə İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilmiş və hazırda uğurla fəaliyyət göstərir".

**Prezidentin köməkçisinin sözlərinə görə, sosial şəbəkə istifadəçilərinin sayı ölkədə 3 milyon nəfərdən çoxdur ki, bu da cəmi 10 milyon əhalisi olan bir ölkə üçün çox böyük göstəricidir:** "Sosial şəbəkələrə dövlət səviyyəsində verilən əhəmiyyətin nəticəsidir ki, Azərbaycan prezidenti İlham Əliyevin özünün və əksər dövlət qurumlarının, ayrı-ayrı vəzifəli şəxslərin rəsmi sosial profilləri fəaliyyət göstərir. Hakimiyyət sosial şəbəkələrdə qaldırılan məsələlərə mütəmadi olaraq öz münasibətini bildirir, internetə məlumat mənbələrindən biri kimi yanaşır və ondan istifadə edir.

Müşahidələr və təhlillərdən aydın olur ki, son illərdə sosial şəbəkələr ictimai rəyin formalaşmasına təsir imkanlarını artırmağa çalışır. Lakin burada bir məqamı qeyd etməliyik ki, sosial şəbəkələrin rolunu müsbət xarakterizə edən cəhətlərlə yanaşı, mənfi meyllər də özünü göstərir. Sosial şəbəkələrin meydana gəlməsi bir tərəfdən söz və öz fikrini ifadə etmək azadlığının təmin olunmasında yeni perspektivlər açır. Digər tərəfdən, sosial şəbəkələrlə insan hüquqları arasındakı qarşılıqlı təsir bəzən xoşagəlməz vəziyyət yaradır. Belə ki, sosial şəbəkələrdə insanların şərəf və ləyaqətinin alçaldılması halları baş verir ki, bu da insan hüquqlarının pozulması deməkdir. Təəssüf ki, bu cür mənfi hallar bəzən transmilli medianın fəaliyyətində də özünü göstərir. Transmilli media qurumlarının verilişlərinin ölkədə yayılmasının müsbət cəhəti bundan ibarətdir ki, əhali dünyada baş verən proseslərlə bağlı operativ məlumatlar əldə etmək imkanı qazanır. Burada özünü göstərən mənfi xüsusiyyət isə ondadır ki, bəzən müxtəlif siyasi dairələrin və yaxud lobbi qruplarının təsiri ilə transmilli media qurumları ictimai rəyi manipulyasiyaya məruz qoymağa çalışır, obyektivlik və bitərəflik kimi prinsiplərə zidd olaraq qərəzli, subyektiv informasiyalar yayır.

Yuxarıda dediklərimizi ümumiləşdirsək, belə bir qənaətə gəlmək olar ki, Azərbaycan hakimiyyəti hazırda söz və mətbuat azadlığının, KİV-in inkişafının təmin edilməsini dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab edir. Bizim ölkə dünyanın və bölgəmizin azsaylı ölkələrindəndir ki, hələ 1998-ci ildə mətbuat və informasiya nazirliyini ləğv etmiş və mətbuatın dövlət tənzimlənməsindən birmənalı şəkildə imtina etmişdir. Azərbaycan dövləti bu işi hazırda ölkə jurnalistlərinin öhdəsinə buraxmışdır ki, onlar da öz ümumi toplantılarında jurnalistlərin vahid ictimai təşkilatı olan Mətbuat Şurasını yaratmışlar. Mətbuat Şurası bəhs etdiyim istiqamətdə dövlətin əsas tərəfdaşıdır. Ölkə jurnalistlərinin ictimai maraqlarının yeganə təminatçısı kimi çıxış edən bu qurum uğurlu fəaliyyət göstərir və bugünkü möhtəşəm toplantı da bunun əyani sübutudur. Dünya ölkələrini təmsil edən əksər mətbuat şuralarını Bakıya toplamaq və milli-transmilli jurnalistikanın, azad medianın problem və uğurları müzakirə etmək bacarığı bunun göstəricisidir".





Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral isə çıxışında vurğuladı ki, qardaş ölkələr olan Türkiyə və Azərbaycan mədəniyyət, tarix baxımından bir millət, iki dövlətdir. Türkiyə və Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrlə qürur duyuruq və bu prosesi davam etdirməkdə israrlıyıq.

Səfir qeyd edib ki, Türkiyə Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsinin tez bir zamanda həllini vacib sayır. Xocalıda yüzlərlə insanı qətlə yetirən ermənilər Türkiyəni soyqırımı törətməkdə ittiham edirlər. Bütün bu qarayaxmalara qarşı gerçəkləri dünyaya göstərmək Türkiyə və Azərbaycan mediasının üzərinə düşən ən böyük vəzifələrdən biridir.

BMT-nin Qlobal Kommunikasiyalar Departamentinin Azərbaycan üzrə təmsilçisi Rəşad Hüseynov, Avropa Şurasının Bakı ofisinin nümayəndəsi Pərvanə Bayramova və digər çıxış edənlər Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının yaranma tarixindən və fəaliyyətindən, eləcə də müasir medianın üzləşdiyi problemlərdən və qarşısında duran vəzifələrdən bəhs ediblər.

Qeyd edək ki, tədbirin ikinci hissəsində iştirak edən dövlətlərdə söz və mətbuat azadlığının vəziyyətinə dair hesabatlar dinlənilib. Bu gün isə toplantının mövzusu müharibə və münaqişələrlə bağlı yaranmış ekstremal vəziyyətlərdə jurnalist fəaliyyətinə həsr olunacaq.

**❑ Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**



# Uşaq pulu hələlik yetişməyib

Zamin HACI
zaminhaci@gmail.com

*"Əgər sən uşaqlardan ötrü bu qədər başını ağrıdırsansa, heç qorxma və ürəyini gen saxla, bunlara moizə-zad lazım deyil, bunlarınkı, bax, bu şallaqdı".*
(Mirzə Cəlil, "Danabaş kəndinin məktəbi")

**Epiqraf verdiyim əsərində Cəlil Məmmədquluzadə Danabaş kəndində məktəbə uşaq yığılması zamanı yaranan qeyri-adi çətinlikdən bəhs etmişdir. Avam kəndlilər elə zənn edirlər ki, oğlan uşaqlarını əsgərliyə aparmaq üçün siyahıya alırlar. O üzdən heç biri məktəbə uşaq vermir. Hətta qorxularından deyirlər bizim kənddə ümumiyyətlə uşaq yoxdur.**

Son günlərin uşaq pulu diskussiyaları mənə o əsəri xatırlatdı. Sadə izah eləsək, burada iki tərəf vardır. Biri hökumətdir, ilin əvvəlində camaata çoxlu güzəşt-müzəşt, artım-zad eləyəndə bu uşaq pulu söhbətinin aparılmasına da etiraz etməmişdi. Hətta bəzi icazəli ekspertlər bu pulu haradan çıxartmaq, büdcənin hansı deşiyindən sümürmək lazım olduğunu göstərirdilər. Yaz və yay boyunca bu müzakirələr vaxtaşırı getdi. Nəhayət, keçən həftə Siyavuş Novruzov uca milləti nahaq yerə boş ümidləndirən açıqlama verib aranı lap qızışdırdı, dedi mümkündür uşaq pulunu bərpa eləyək. Ancaq sonradan məlum oldu hökumətin belə fikri yoxdur, çoxlu ekspertlər, jurnalistlər meydana atılıb sübut eləməyə çalışdılar ki, əslində bizdə ünvanlı sosial yardım elə uşaq pulu kimi zaddır, imkansız uşaqlara dövlət başqa formalarda min cür qayğı göstərir, heç dağılan Almaniyada uşaqlar bizim Alatava uşaqları qədər xoşbəxt deyildir və hətta bəlkə bizdə heç uşaq yoxdur!

Diskussiyanın ikinci tərəfi müxalifət və xaricdən maliyyələşən qara blogerlərdir ki, onlar hökuməti uşaqları sevməməkdə suçlayırlar. Ancaq özləri hakimiyyətdə olanda balaca uşaqları tutub soldat aparırdılar, heç uşqol üzü görmürdük. Elə bilirlər camaat çörəyi qulağına yeyir. İsgəndər Həmidov uşaq bağçalarından oyuncaqları müsadirə edirdi, Elçibəy isə körpələr evində siqaret çəkib kötüyünü balacaların qarşokunda söndürürdü. Pis günlər idi, inşallah, bir də gəlməz.

Hökumətyönlü ekspertlərin bir əsas arqumenti isə budur ki, uşaq pulu əhali azalan ölkələrdə, loru dildə yazsaq, ölümün doğumdan çox olduğu ərazilərdə aktualdır, camaatı demoqrafik qəhrəmanlıqlara həvəsləndirmək üçündür, bizim ölkədə isə, maşallah, əhali artımı var. Doğrudan da, bizdə rəsmi statistikaya görə doğum ölümdən çoxdur, hərçənd həmin rəqəmdə ilbəil azalma müşahidə edilir. Bu il 10 milyon olduq, ancaq müstəqil ekspertlərin hesablamasına görə, Azərbaycanda real olaraq 7 milyondan bir az çox adam yaşayır. Heç statistikaya ehtiyac yoxdur, gözlə də görmək olar ki, bizdə iki və bir uşağı olan ailələr getdikcə artır. Bu isə azalma deməkdir, çünki iki nəfər valideyn artım üçün azı 3 uşaq dünyaya gətirməlidir. Yeri gəlmişkən, bu azalmanı yalnız iqtisadi problemlərlə izah eləmək yanlışdır, əksinə, yaxşı yaşayan ölkələrdə əhalinin azalması müşahidə olunur (ən böyük misal dağılan Almaniyadır). Adamlar yaxşı yaşayanda, orta sinif çoxalanda bunların dünyaya yeni uşaq gətirməyə həm marağı olmur, həm də məsuliyyət hissi yüksəlir. Bir növ öz ömürlərini yaşamağa üstünlük verirlər. Hazırda dünyada ən çox artım olan yerlər kasıb ölkələrdir, Afrikada elə ölkə var ki, qadınların orta doğum əmsalı 5-6 uşağı keçir. Buna beynəlxalq terminologiyada fertillik, türkcə isə doğurqanlıq deyirlər. Örnək üçün, ən bədbəxt müsəlman ölkələrindən Nigerdə doğurqanlıq 7,7 uşaqdırsa, dünyanın ən inkişaf eləmiş dövlətlərindən Sinqapurda 0,81-dir, yəni Sinqapurda bir çox qadınlar ümumiyyətlə doğmaq istəmirlər. Azərbaycanda doğurqanlıq 1990-95-ci illərdəki 2,9-dan 2018-ci ildə 1,89-a düşübdür. Bu da azalmanı göstərir, çünki yuxarıda yazdığımız kimi: əhali artımı üçün əmsal 2-dən yuxarı olmalıdır.

Göründüyü kimi, əhaliyə vədlər verəndə ehtiyatlı olmaq lazımdır, yəqin deputatlara bu istiqamətdə növbəti xəbərdarlıq edilər. Qaldı uşaq pulu vacibdir, ya yox, şəxsən mənim qənaətimə görə hökumət öz millətini yaxşı tanıyır, bilir ki, vaxtaşırı onları sakitləşdirmək üçün nəsə nəzir verilməli, qurbanlar kəsilməlidir. Yəni burada hər hansı iqtisadi əsas, büdcə siyasəti, nə bilim, demoqrafik təşviq-zad aramaq mənasızdır, haçan istəsələr bərpa edərlər. Azərbaycan xalqının ipinin üstünə odun yığmaq üçün gərək bu meşədə indiki iqtidar qədər uzun illər yaşayasan. Azərbaycanlıları başa düşmək olduqca çətindir. Misal üçün, bunlar az qala metroya da UZİ aparatı qoyublar ki, qız uşaqlarının doğulması mümkün olmasın, rəhmətlik ədliyyə nazirimiz Südabə xanım demişkən, "demokratiya beşikdə boğulsun". Eyni zamanda hər gün xəbər lentində "Filan yerdə qız üstündə bir-birini öldürdülər, doğradılar, mindilər, çapdılar" tipli başlıq görürük. Qabaqca nəslini kəsirlər, sonra da yoxluq, qıtlıq yaranır, boğuşurlar. Beləsinə niyə uşaq pulu verəsən? Ondansa UZİ alınsın, çimərlik və dükanlara da qoyulsun.



# Ermənistan inqilab eyforiyasından çıxır - kritik gözlənti

## Hökumət özünümüdafiə taktikasına keçir; xalqdan qorunmaq üçün qalxan qismində "ehtiyat qüvvə" yaradılır; **erməni nəşri:** "Paşinyan hadisələrin mümkün inkişaf ssenarilərinə hazırlaşır..."

**Ermənistanın "xalq baş naziri" Nikol Paşinyan uğursuzluq zolağına girib. Hamı ondan ilk növbədə əhalinin rifah halını yaxşılaşdırmaq, Qarabağ konfliktinin həllində real addımlar atıb ölkəni blokada rejimindən çıxarmağı gözlədiyi vaxtda o, avqustun 5-də - hakimiyyətinin 15-ci ayında bəyan elədi ki, "Qarabağ Ermənistanındır. Nöqtə". "Nöqtə" isə məntiqlə o deməkdir ki, problem daha mövcud deyil.**

Hərçənd bundan az öncə Paşinyan bildirmişdi ki, müharibə hələ bitməyib. Müharibə bitməyibsə, o zaman Qarabağ konflikti necə bitmiş sayıla və nöqtə qoyula bilər? Biz hələ onu demirik ki, Nikol Vovayeviç özü-özünü təkzib edən başqa ziddiyyətli fikirlərin də müəllifidir. Məsələn, demişdi ki, "Münaqişənin həlli Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ xalqını qane etməlidir".

Yaxud onun yaxın 30 il üçün Ermənistan əhalisinin sayını 5 milyona çatdırmaq, 1.5 milyon iş yeri açmaq, 2.5 milyon adam üçün işsizlik problemini həll edib yoxsulluğun kökünü kəsmək, ölkə iqtisadiyyatında ÜDM-i 15 dəfə artırmaq, 5 milyard dollar tapıb silahlı qüvvələri gücləndirmək və məğlubedilməz ordu yaratmaq barədə vəd-sərsəmələmərini də xatırlamaq olar.

Artıq bu qəbildən vədlərə Nikol Paşinyanın ən fanatik tərəfdarları da inanmırlar. Çünki göz gördüyünə inanır. Görünən isə budur ki, Paşinyan və onun komandası hakimiyyətdə olduğu il yarımda öyünüləsi heç bir ciddi iqtisadi uğura imza ata bilməyib. Erməni iqtisadçılarının da etiraf elədikləri kimi, iqtisadiyyatda böhran, ölkədə kütləvi işsizlik və səfalət, xaricə köç davam edir. İşğalçı ölkədə hazırkı hakimiyyətdən narazıların sayı isə hər gün bir az daha artmaqda, etiraz aksiyaları genişlənməkdədir.

Sıravi ermənilər belədə, keçən ilin 8 may "məxməri inqilabı"nın eyforiyasından sürətlə çıxıb sərt gerçəyə açıq gözlə baxmaqdadırlar. Elə keçmiş jurnalist - indiki baş nazir Paşinyanın özü də, deyəsən, proseslərin fərqindədir və eyforiyadan çıxmağa başlayıb...

*****

**Ermənistan daxilindəki situasiyanı təhlil edən erməni siyasi icmalçı Ayk Usunts yazır ki, cəmi bir il öncə - nə vaxt ki, inqilab eyforiyası kəllə-çarxda idi, Paşinyanın reytinqi isə Kim Kardaşyandan yüksəkdə idi, insanlar hiss etmirdi ki, hara yuvarlanırlar:** "Təbii ki, aşağıya doğru. Gör vəziyyət hara gəlib çatıb ki, Ermənistanın ictimai xadimləri öz dövlət başçıların Kardaşyanla müqayisə edirlər... Adamlar iki təhlükəli şeyin baş verdiyini hiss etməyiblər. Biri odur ki, baş nazir, MTX direktoru və İstintaq Xidmətinin rəhbəri gizli şəkildə dinlənilib. Dinlənilmə faktının və müvafiq audioyazıların dərcinin özü artıq dövlət təhlükəsizliyi baxımından çox pis siqnal idi".

**Müəllifə görə, Ermənistanda siyasi təqiblər həyata keçirilir, hakimlərə təzyiq edilir və telefon mühakiməsi həyata keçirilir.** "Yəni sifarişlər var. Başqa sözlə, Nikol xalqı aldadıb. Ancaq bu aldanış eyforiya mərhələsində, Paşinyan Kardaşyandan da populyar olduğu vaxtda faş olduğu üçün bizim cəmiyyətin "qürurlu" kəsmi ona sual-lar verəsi olmadı", - deyə o qeyd edib.

**Erməni siyasi şərhçinin fikrincə, artıq cəmiyyətdə bir çoxu başa düşür ki, problem 2-ci prezidentdə (Robert Köçəryan nəzərdə tutulur - "YM") yox, ölkədə biabırçı atmosferin bərqərar olmasında və məhkəmə sisteminin məhv olma həddinə gəlməsindədir.** "Artıq böyük aşınmalar baş verib. Hərçənd heç olmamaqdansa, gec olmağı daha yaxşıdır. Vəziyyətin daha da ağırlaşmasına imkan verməmək olmaz. Müştəri (Nikol Paşinyan nəzərdə tutulur - "YM") əsəbi və proqnoza yatmayan obyektə çevrilməkdədir", - deyə o əlavə edib.

*****

"Past" qəzeti isə yazır ki, hakimiyyət bir neçə istiqamətdə hadisələrin mümkün inkişafına hazırlaşmağa başlayıb. "Yeni Müsavat"ın məlumatına görə, nəşr qeyd edir ki, Ermənistanın siyasi həyatında az qala hər gün müxtəlif variasiyalar müşahidə edilir, hansı ki, öz növbəsində zamanında siyasi təzədən qruplaşmalara və ölkə gündəminin dəyişməsinə gətirə bilər.

**Qəzet öz mənbələrinə istinadən yazır ki, hakimiyyət kataklizmlərdən qaçmaq üçün bir neçə istiqamət üzrə proseslərin inkişafına hazırlıqlar görür:** "Nikol Paşinyan özü üçün "ehtiyat qüvvə" yaradılmasına girişib - hansı ki, ondan ötrü reytinqin kəskin və geridönməz şəkildə düşdüyü və ya hadisələrin qəfil kəskin inkişafı halında ondan ötrü qalxan rolu oynamalıdır".

Qəzet yazır ki, bu məqsədlə parlamentdəki qüvvələrlə ondan kənardakı qüvvələr birləşməkdədir. "Bu qüvvələr hakimiyyətin həyata keçirdiyi "məxməri" siyasətə və "yumşaq üsullar"a qarşıdır. İstisna deyil ki, belə bir konsolidasiya edici qüvvəyə müxtəlif vaxtlarda siyasi opponent sayılanlar da qoşulacaq", - deyə nəşr əlavə edib.

*****

Xatırladaq ki, keçən həftə Nikol Paşinyan qatı anti-Rusiya mövqeyi ilə seçilən və Ermənistandakı Rusiya hərbi bazalarının bağlanmasını tələb edən radikal "Sasna Tsrer" partiyasının rəhbəri Jirayr Səfilyan və qurumun digər aparıcı üzvləri ilə görüş keçirib. Görüşdə nələrin müzakirə edildiyi barədə rəsmi bilgi verilməyib. Yalnız fakt rəsmən təsdiqlənib. Livan "təcrübəsi"nə malik peşəkar terrorçu Səfilyan isə görüşlə bağlı deyib: "Kremlin Paşinyandan bacardıqca tez qurtulmaq barədə qərarı var".

Səfilyan və tərəfdarları 3 ilk öncə İrəvanda polis idarəsini ələ keçirərək bir polis zabitini qətlə yetirməyə görə həbsə alınmışdılar. Nikol Paşinyan isə hakimiyyətə gələn kimi onları azad etdirdi, üstəgəl, bu terrorçu qruplaşma eyni adda partiya yaradaraq, ötən ilin dekabrında parlament seçkilərinə qatıldı.

Belə görünür ki, Paşinyan hadisələrin arzuolunmaz səmtdə inkişaf edəcəyi təqdirdə hətta terrorçuların xidmətindən də yararlanacaq. Axı onun "stəkanda fırtınası" alınmayıb. Demək, əsl fırtına qabaqdadır. Başqa yandan, bu ölkədə hakimiyyət uğrunda mübarizədə terror həmişə sınanılmış üsullardan olub. Elə hazırda mühakimə olunan eks-prezident Robert Köçəryan 1999-cu ilin oktyabrında öz əsas siyasi rəqiblərinin axırına məhz terror yolu ilə - parlamenti gülləbaran etməklə çıxmışdı. Pis nümunə yoluxucu olur...

❑ "Yeni Müsavat"ın analitik xidməti



# Rusiya ilə yeni mühüm ticari anlaşmalar

**Bu ilin yeddi ayında iki ölkə arasında ticarət dövriyyəsi 23 faiz artıb; Yeltsinin vətəni ilə Azərbaycan arasında iqtisadi əlaqələrin artması üçün müstəvi geniş və çoxşaxəlidir: hərbi sahədən tutmuş, dəmir yolu, maşınqayırma, əczaçılıq və sairə qədər...**

**Rusiya vilayətindən geniş tərkibli nümayəndə heyəti Azərbaycana gəlib. Ural dairəsinin Sverdlovsk vilayətindən gələn qonaqların şərəfinə Bakıda növbəti Azərbaycan-Rusiya biznes forumu təşkil olunub.**

İqtisadiyyat Nazirliyinin yaydığı məlumata görə, forumun gündəliyində ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün mühüm məsələlər yer alıb. Belə ki, forum çərçivəsində Yekaterinburq şəhərinin Kalinin adına Maşınqayırma Zavodu ilə Azərbaycanın bir sıra dövlət qurumları arasında görüşlər keçirilməlidir. Həmçinin Rusiyanın bir sıra şirkətləri ilə SOCAR-ın qurumları, eləcə də BP və digər neft-qaz sənayesi üzrə fəaliyyət göstərən şirkətlər arasında əməkdaşlığa dair danışıqlar aparılmalıdır.

Tərəflər həmçinin informasiya texnologiyaları sahəsində də əməkdaşlıq məsələlərini müzakirə edəcəklər. Azərbaycan tərəfindən bu sahədə keçiriləcək görüşlərə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nümayəndələri qatılacaq. Tədbir çərçivəsində təşkil olunacaq B2B görüşlərdə müxtəlif sahələrdə Rusiya və Azərbaycan qurumları arasında ikitərəfli görüşlər keçiriləcək. Əsas müzakirə mövzuları səhiyyə, nəqliyyat, təhsil, toxuculuq, inşaat və digər sahələrdə əməkdaşlıq olacaq.

**Rusiyadan gələn heyətə Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşev başçılıq edir. Forumda çıxış edən iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov bildirib ki, belə biznes-forumlar iki ölkə arasında ticarət əlaqələrin inkişafına xidmət edir:** "Bu əlaqələrin inkişafında Sverdlovsk vilayəti də vacib əhəmiyyətə malikdir. Dünən Sverdlovsk vilayəti ilə Azərbaycan arasında bir sıra sənədlər imzalandı. Həmin imzalanan sənədlər arasında təhsil sahəsində imzalanmış müqavilələr də mühüm əhəmiyyətə malikdir. Bu, bir daha iki ölkə arasında əlaqələrin çoxşaxəli olduğunu sübut edir".

**Nazir müavini vurğulayıb ki, Rusiya Azərbaycanın mühüm ticarət tərəfdaşıdır:** "Rusiyanın Cənubi Qafqazla ticarətinin yarısı Azərbaycanın payına düşür. Belə ki, bu ilin yeddi ayında iki ölkə arasında ticarət dövriyyəsi 23 faiz artıb. Rusiya Azərbaycan iqtisadiyyatına 4,7 milyard dollar investisiya yatırıb, Azərbaycan isə Rusiyaya 1,2 milyard dollar yatırıb".

**R.Məmmədov qeyd edib ki, ötən il Sverdlovsk vilayəti ilə ticarət dövriyyəsi 83 faiz artaraq 95 milyon dollar təşkil edib, bu il 100 milyonu keçəcəyi gözlənilir:** "Sverdlovsk vilayəti ilə ticarət əlaqələrinin genişləndirilməsi üçün böyük potensial görürük".

**Sverdlovsk vilayətinin Beynəlxalq münasibətlər və xarici iqtisadiyyat üzrə naziri Vasiliya Kozlova isə bildirib ki, ötən il Sverdlovsk vilayəti ilə Azərbaycan arasında ticarət əlaqələri genişlənib:** "Lakin bu, sonuncu hədd deyil".

**Onun sözlərinə görə, ticarət əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensial mövcuddur:** "Biz azərbaycanlı hər bir biznesmenlə işləməyə hazırıq".

Qeyd edək ki, biznes-forum çərçivəsində Yekaterinburq şəhərində Logistika mərkəzinin yaradılması ilə bağlı Sverdlovsk vilayəti arasında anlaşma memorandumu imzalanıb.

**Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşev bildirib ki, Azərbaycanla əməkdaşlıq vilayətin beynəlxalq əlaqələrində başlıca istiqamətlərdən biridir:** "Əməkdaşlığımızı daha da inkişaf etdirmək üçün böyük potensial var. İşgüzar əlaqələr və təhsil sahələrində birgə planlar tərtib etmək imkanı yaratdıqları üçün Azərbaycan tərəfinə çox minnətdaram. Bakıya səfərimiz zamanı elm, təhsil, mədəniyyət sahələrində də müştərək layihələrə dair bir çox sənədlər imzalayacağımıza əminəm".

**Sverdlovskdən gələn nümayəndə heyətini ölkə prezidenti və iqtisadiyyat naziri qəbul edib. İqtisadiyyat naziri Şahin Mustafayevin görüş zamanı verdiyi məlumata görə, 2018-ci ildə Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi 19 faiz artıb və 2,5 milyard ABŞ dollarını keçib:** "Bu ilin 7 ayında isə Azərbaycan və Rusiya arasında ticarət dövriyyəsi 23 faiz artıb. Bu da olduqca böyük rəqəmlərdir. Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyası çərçivəsində aparılan təhlil hər iki tərəfin gəldiyi qənaət ondan ibarətdir ki, Azərbaycan Rusiyaya meyvə və tərəvəzin ixracını 2 dəfəyə yaxın artıra bilər".

**Nazirin sözlərinə görə, bu Azərbaycan iqtisadiyyatının potensialı baxımından və Rusiya bazarının imkanları baxımından mümkün hesab olunur. O bildirib ki, ötən il Azərbaycan meyvə-tərəvəz istehsalçıları Rusiyaya 555 min ton meyvə və tərəvəz ixrac edib:** "Biz düşünürük ki, bu gün bu rəqəmi ən azı iki dəfə artırmağa imkan var. Yəni bu həcmləri təxminən 1 milyon tona çatdırmaq imkanları var".

Nazir qeyd edib ki, Yekaterinburqda logistik mərkəzin yaradılması bu rəqəmlərin reallaşdırılması istiqamətində yaradılan bir layihə olacaq.

Ş.Mustafayev həmçinin bildirib ki, Sverdlovsk vilayətinin Kalinin adına zavodu ilə Azərbaycanda birgə istehsalın yaradılması mümkün ola bilər. Onun sözlərinə görə, ola bilsin ki, Azərbaycanda qaldırıcı avadanlıq və kranların istehsalı təşkil edilsin: "Artıq bu barədə danışıqlar aparılacaq".

Nazir qeyd edib ki, Azərbaycanın aparıcı şirkətləri buna çox böyük maraq göstərirlər və görüşlərdə bu müzakirələr aparılacaq.

Qeyd edək ki, Sverdlovsk nümayəndə heyəti ilə işgüzar görüş zamanı Azərbaycan hökuməti ilə Sverdlovsk vilayəti hökuməti arasında iqtisadi-ticari, elmi-texniki və başqa sahələrdə beynəlxalq və xarici iqtisadi əlaqələr sazişi, Bakı Dövlət Universiteti və Azərbaycan Dillər Universiteti ilə Rusiyanın birinci prezidenti B.Yeltsin adına Ural Federal Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.

Qeyd edək ki, Sverdlovsk vilayəti, xüsusilə onun mərkəzi olan Yekaterinburq şəhəri hələ sovet dövründən Azərbaycan vətəndaşlarının Rusiyada ən çox üz tutduqları məkanlardan biridir. Bunun da əsas səbəbi vilayətin əlvan və ağır metallurgiya, dağ-mədən sənayesinin inkişafı, bu sahədə yaradılan böyük komplekslərdə işçi qüvvəsinə tələbatın yüksək olmasıdır. Azərbaycan və digər respublikalardan gənclər bu komplekslərdə işləməyə həvəslə gedirdilər.

Hazırda 4 milyon 641 min nəfərdən yuxarı əhalisi olan Sverdlovsk bu göstərici üzrə Rusiyanın 5-ci, Ural dairəsinin isə ən böyük vilayətidir. Vilayətin mərkəzi, Rusiyanın ilk prezidenti Boris Yeltsinin vətəni olan Yekaterinburqda 1,3 milyon nəfər əhali yaşayır. Vilayət əhalisinin cəmi 13 faizi kəndlərdə yaşayır ki, bu da Sverdlovskin sənayeləşmə səviyyəsinin yüksək olmasından irəli gəlir. Vilayət ərazisində böyük metallurgiya komplekslərinin ətrafında yaranmış 40-dan yuxarı şəhər tipli qəsəbə var. Sənaye istehsalının həcminə görə vilayət Tümen əyaləti və Moskva şəhərindən sonra üçüncü yerdə gəlir. Burada sənaye kompleksinin aparıcı sahələri qara və əlvan metallurgiya, maşınqayırma və metal emalıdır.

Sovet dövründən sənaye mərkəzi kimi tanınan Sverdlovskdə bu sahəyə məxsus böyük müəssisələrin əksəriyyəti istehsal gücünü bərpa etməkdədir. Bir sıra sahələr üzrə isə mühüm nailiyyətlər əldə olunub. Onlar arasında ağır maşınqayırma, xüsusilə də dəmiryol vaqonlarının, lokomotivlərin, dəmiryol ehtiyat hissələrinin, müxtəlif yük avtomobilləri və sair istehsalı var. Azərbaycan Dəmir Yolları QSC vilayətin yük vaqonlarının istehsalı üzrə ixtisaslaşmış Ural Vaqon Zavodu ilə sıx əməkdaşlıq edir. Belə ki, 2015-ci ildən 2017-ci ilədək QSC bu zavoddan 3100 ədəd müxtəlif tipli yük vaqonu alıb. ADDY rəhbərliyi daha 4 min vaqona ehtiyac duyduqlarını açıqlayıb. Bu isə Ural zavodu ilə əməkdaşlığın davam edəcəyi deməkdir.

"Uralvaqonzavod" həm də dünyanın tankların istehsalı üzrə ixtisaslaşmış ən böyük komplekslərindən biridir. SSRİ ordusunu "T-72" tankları ilə təmin edib. Hazırda "T-90" və "T-14" tanklarının istehsalını həyata keçirir. Rusiya hərbi sənaye kompleksinin əsas müəssisələrindən biri olan zavod 2014-cü ildə Ukrayna ərazisinə müdaxiləyə görə ABŞ tərəfindən bu ölkəyə qarşı tətbiq edilən sanksiya paketinə daxil edilib. Sanksiyalar yeni avadanlıqların əldə olunmasının qarşısını alıb, xaricdən sifarişləri kəskin azaldıb. Bu isə "Uralvaqonzavod"u böyük maddi çətinliklərlə üz-üzə qoyub. Yeri gəlmişkən, Azərbaycan həm də bu müəssisənin istehsalı olan "T-90" tanklarının alıcılarındandır.

Sverdlovsk həm də Avropa və Asiyanın kəsişmə nöqtəsində yerləşməklə qitələri birləşdirən hava, dəmir və avtomobil yollarının mərkəzində durur. Yekaterinburq 5 istiqamətdən gələn strateji dəmiryol, 6 avtomobil yolu marşrutlarının nöqtəsidir. Bu baxımdan, bu şəhərdə logistika mərkəzinin açılması Azərbaycanın öz məhsullarını Rusiyanın Urtal, Tümen və Sibir dairələrinə, həmçinin Çin və Asiyaya çıxarması baxımından əhəmiyyətli rol oynaya bilər.

"Rus konteyner şirkəti" Səhmdar Cəmiyyətinin baş direktoru İvan Qrişaqinin sözlərinə görə, rəhbəri olduğu səhmdar cəmiyyətin mütəxəssisləri Azərbaycanın Bakı-Tiflis-Qars dəmir yolu marşrutunu Rusiyanın Privoljsk, Ural və Sibir federal dairələrindən Türkiyənin Aralıq dənizindəki limanlarına, daha sonra Afrika və Yaxın Şərq ölkələrinə yükdaşımaların ən qısa yolu kimi qiymətləndirirlər.

Göründüyü kimi, Yeltsinin vətəni ilə Azərbaycan arasında iqtisadi əlaqələrin artması üçün müstəvi geniş və çoxşaxəlidir: hərbi sahədən tutmuş, dəmir yolu, maşınqayırma, əczaçılıq və sairə qədər...

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 189 (7359) 13 sentyabr 2019

# İsrailin baş naziri Məmmədyarovu necə kabinetindən etdi?

## İsrailin İordan vadisi qərarı və onun gözlənilən təsirləri...

**İsrailin baş naziri Benyamin Netanyahu deyib ki, yenidən baş nazir olarsa, İordan çayının qərb sahilində yerləşən İordan vadisini İsrailə birləşdirəcək. Sentyabrın 17-də İsraildə təkrar seçkilər keçiriləcək. Apreldə keçirilən seçkilərdə Netanyahu qalib gəlsə də, hökumət qurmaq üçün koalisiya təşkil edə bilməyib. Buna görə də təkrar seçkilər elan edilib.**

Netanyahu seçkilər öncəsi bu cür bir neçə qalmaqallı açıqlamalar verib. 2017-ci ilin dekabrında ABŞ prezidentinin Qüdsü İsrailin paytaxtı kimi tanıması, daha sonra 1967-ci il müharibəsində İsrail ordusu tərəfindən işğal olunmuş Colan təpələri bölgəsini İsrail ərazisi kimi tanıması Netanyahunun bir mənada siyasi uğuru hesab olunur. Ancaq indi baş nazirin seçkiqabağı növbəti vədi ciddi qalmaqala səbəb olacaq kimi görünür.

İordan (Urdun) vadisi haradır?

İordan və ya ərəbcə Urdun vadisi adlanan ərazi eyni adlı çayın qərb sahilində Qüds və İordan çayı arasında olan münbit ərazidir. Bu torpaqlar 1947-ci il BMT qərarına əsasən Fələstin dövlətinə aid idi. Ancaq 1967-ci il 6 günlük müharibə nəticəsində İsrail bu bölgəni də işğal edib. Hazırda bölgənin rəsmi idarəçiliyi Colan təpələrində olduğu kimi İsrailə məxsusdur. BMT qətnaməsinə əsasən İordan vadisi Fələstinə aid olsa da, İsrail "təhlükəsizliyi" əsas gətirərək vadini əlində saxlamağa çalışır. Bu günə qədər davam edən Fələstin danışıqlarında da İordan vadisi ən problemli mövzulardan biri olaraq qalır.

Məsələ ondadır ki, İsrail İordan vadisində yeni yaşayış



məskənləri salıb. Bu məskənlər BMT tərəfindən qanunsuz elan olunsa da, İsrail bu qərarları rədd edir. Bundan başqa, İsrail dövləti İordan vadisi ərazilərinin 87 faizini hərbi bölgə elan etdiyi üçün fələstinliləri buralara buraxmır. Ərazinin 7 faizi təbiət qoruğu elan edildiyi üçün burada yaşayış və əkinçilik qadağandır. Yerdə qalan ərazidə isə 65 min fələstinli, 5 min köçəri bədəvi və 37 yaşayış məntəqəsində 10 minə yaxın yəhudi yaşayır. Burada eyni zamanda İordaniya ilə sərhəd məntəqəsi Allenbi yerləşir. Buradan Qərb sahili fələstinliləri İordaniyaya keçə bilir.

Ümumilikdə İsrailin 1967-ci ildə İordan çayının qərb sahili və Şərqi Qüdsü ələ keçirməsindən sonra bu ərazilərdə 140 qanunsuz yaşayış məskəni inşa edib və burada 600 min yəhudi yerləşdirilib.

İordaniya vadisi həm əkinçilik üçün münbit ərazilərə sahibdir, həm də Ölü dəniz sahillərində böyük mədən ehtiyatları var. 2013-cü ildə hazırlanan hesabata əsasən Ölü dəniz mədənlərinin istifadəsi nəticəsində Fələstin dövləti ildə 1 milyard dollardan çox gəlir əldə edə bilər. Eyni zamanda İsrail işğalı altında olan İordan vadisində əkinçiliyə imkan verilsə, illik 700 milyon dollar pul qazana bilər.

Beynəlxalq ictimaiyyət Qüds və Colandan sonra bu dəfə İordan vadisi qərarına sərt etiraz edib. Netanyahunun açıqlamasından dərhal sonra Ərəb Dövlətləri Liqası xarici işlər nazirləri Qahirədə toplantı keçirib. Ərəb nazirlərin yaydığı ortaq bəyanatda Netanyahunun açıqlaması "məsuliyyətsiz, qanunsuz və təhlükəli" adlandırılıb. Və gərginliyin artmasına görə İsrail hökuməti günahkar göstərilib.

Səudiyyə Ərəbistanı isə Netanyahunun bəyanatından dərhal sonra İslam Əməkdaşlıq Təşkilatının zirvə toplantısını çağırıb.

Netanyahuya Avropa ölkələrindən də qınaqlar gəlib. İsveç xarici işlər naziri Ann Linde Netanyahunun bəyanatını "uğursuz açıqlama" adlandırıb və AB, eləcə də beynəlxalq ictimaiyyətin bu addımı beynəlxalq hüquqa zidd hesab etdiyini deyib.

Fələstin hökuməti isə İsrailin bu addımının BMT qərarlarına zidd olduğu, İsrailin bu qərarlara əməl etmədiyi üçün BMT-dən çıxarılmasına çağırıb.

Sentyabrın 15-də İslam Əməkdaşlıq Təşkilatının fövqəladə toplantısı keçiriləcək. XİN rəhbərlərinin sammitində onsuz da işləri çox olan, daima xarici səfərlərdə olan Azərbaycanın XİN rəhbəri Elmar Məmmədyarov da iştirak edəcək. Böyük ehtimalla, İƏT sammitində İsrail hökumət başçısının bəyanatı pislənəcək, Fələstin məsələsinə dəstək vurğulanacaq. Ancaq xatırladaq ki, 2017-ci ilin dekabrında da Trampın Qüdsü İsrailin paytaxtı kimi tanımasına cavab olaraq İƏT dövlət başçılarının sammiti keçirilmiş və bu qərar pislənmişdi. Ancaq həm İƏT, həm də daha sonra BMT-də ABŞ prezidentinin qərarı pislənib. Lakin bütün bunlar İsrailin mövqeyinə heç bir təsir etməyib. Netanyahunun daha çox seçkilərə hesablanmış bəyanatının beynəlxalq aləmdə İsrailə qarşı çevriləcəyini düşünmək doğru olmaz. Çünki ən azından sentyabrın 17-də Netanyahunun seçilib-seçilməyəcəyi məlum deyil.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Boltonun gedişi ABŞ-ı İranla barışdıracaqmı?

## Amerika mediası Trampın Tehrana qarşı sanksiyaları yumşaltmağı dəstəklədiyini yazır, Ruhani Nyu-Yorkda Trampla görüşə bilər...

**Dünya siyasi gündəminin əsas mövzularından biri də ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun istefasıdır. Boltonu hələlik müavini Çarli Kapperman əvəz edəcək.**

Con Bolton administrasiyada mühüm postlardan biri olan müşavir postuna 2018-ci ilin aprelində təyin olunmuşdu. 17 ay prezident müşaviri olan Bolton dünyada daha çox müharibə tərəfdarı, İrana qarşı müdaxiləni dəstəkləyən dövlət adamı kimi düşdü. Onun administrasiyadan qovulacağı daha əvvəldən məlum idi. Çünki davakar Bolton prezident Trampla və ABŞ-ın xarici siyasət idarəsinin rəhbəri Mayk Pompeo ilə yola getmirdi.

Bolton artıq vəzifədən getsə də, "davakar" müşavirin hansı səbəbdən işdən uzaqlaşdırılması mövzusu hələ də müzakirə olunur. Çünki söhbət həm də dünyanın ən qüdrətli dövlətinin xarici siyasətindən gedir. Başqa sözlə, yaxın zamanda hansı ölkə ilə sülh, hansı ölkə ilə müharibə olacağını müəyyən etmək üçün Boltonun istefasının səbəbini bilmək mühümdür.

İlkin ehtimal budur ki, Bolton Əfqanıstan və Şimali Koreyaya görə istefaya göndərilib. Çünki sabiq müşavir hər iki ölkəyə qarşı sərt davranmaq, Şimali Koreyaya hərbi müdaxilə etmək, Əfqanıstanda isə Talibanla danışıqlara getməmək tərəfdarı olub. Və bu məsələdə onunla prezident Tramp və dövlət katibi Pompeo arasında ciddi fikir ayrılığı olub. Hətta o qədər ki, Tramp Talibanla sülh razılaşmasının aralama mətnini Boltona göstərməməyi tapşırıb. Bu isə Boltonu qəzəbləndirib. Amerikalı ekspertlər hələ ötən həftə bu münaqişənin Boltonun qovulması ilə nəticələnəcəyini bildirirdi.

Lakin məsələ ondadır ki, Talibanla anlaşma baş tutmadı. Talibanın Kabildəki terror hücumu və bir amerikalı əsgərin ölümü Trampı qəzəbləndirdi, sülh danışıqları dayandı. Lakin bundan sonra Bolton da getdi.

Maraqlıdır ki, hazırda ABŞ-la Şimali Koreya arasında dayanmış danışıqların yenidən bərpa olunması haqda danışıqlar gedir. Boltonun istefaya göndərilməsinin Şimali Koreya ilə nə qədər bağlantısı üzə çıxmasa da, indi mətbuatda Boltonun Şimali Koreyada hakimiyyət dəyişikliyi ilə bağlı ssenariləri haqda yazılır. Məlum olur ki, keçmiş müşavir Şimali Koreyada hakimiyyət dəyişikliyi layihəsini dəstəkləyirmiş.

Boltonun istefası ilə bağlı daha bir iddia İranla bağlıdır.



Doğrudur, Qərb mediasının yazdığına görə, Bolton və dövlət katibi Pompeonun İranla bağlı mövqelərində ziddiyyət olmayıb. Hər ikisi Tehranın cəzalandırılması fikrini dəstəkləyib. İran hakimiyyəti isə Con Boltonun gedişindən razı qalıb. Xarici işlər naziri Cavad Zərif deyib ki, bununla dünya rahat nəfəs aldı.

Məsələ ondadır ki, İran siyasəti ilə bağlı Tramp və komandası arasında fikir ayrılığı var. Mətbuatın yazdığına görə, bu ilin iyununda İran ABŞ-a məxsus pilotsuz aparatı vurub salanda Boltonla yanaşı Pompeo və vitse-prezident Mayk Pens Trampa İranı vurmağı tövsiyə ediblər, ancaq prezident bu təklifi qəbul etməyib. Tramp Tehrana qarşı sərt sanksiyaların qəbul olunması və bunun nəticəsində İslam Respublikasının çökdürülməsi fikrini müdafiə edib. Ancaq ABŞ-ın Avropa müttəfiqləri Trampa İranla danışıqlar aparmaq üçün təzyiq edir.

Bolton isə hələ müşavir olmamışdan əvvəl İranda rejim dəyişikliyini müdafiə edib, hətta "Xalqın Mücahidləri" təşkilatının Parisdə keçirilən qurultayına qatılaraq İslam Respublikasının 40 illiyini görməyəcəyini bildirmişdi. Vaşinqtonun bu mövqeyi isə İranda bütün siyasi qanadları yaxınlaşdırmış, Vaşinqtona qarşı sərt xətt güclənmişdi. Halbuki Obama zamanı əldə olunan anlaşma ilə münasibətlər nisbətən yumşalmışdı.

İndi isə Tramp İran prezidenti ilə görüşməyi təklif edib. Daha əvvəl də görüş təklif edən prezident ən son olaraq BMT Baş Assambleyasında Ruhani ilə görüşə biləcəyini bildirib. Ancaq İran hakimiyyəti bu görüşə isti yanaşmır. Prezident Həsən Ruhani deyib ki, sanksiyalar götürülmədikcə görüşün bir əhəmiyyəti yoxdur.

Maraqlıdır ki, ABŞ-ın "Daily Beast" saytı hökumət mənbələrinə istinadən yazıb ki, avqustda Fransa prezidenti ilə görüş zamanı Tramp Avropanın nüvə anlaşmasını qorumaq üçün İrana 15 milyard dollarlıq kredit və ya neft satışı embarqosunu yumşaltmaq təklifini rədd etməyib. O da maraqlıdır ki, Makronun bu təklifinə Pompeo və Dövlət Departamenti diplomatları da etiraz etməyib. Boltonun istefasından həmən sonra Pompeo Ruhani və Trampın BMT Baş Assambleyasında görüşə biləcəyini deyib.

Bilindiyi kimi, Trampın ötən ilin mayında İranla nüvə anlaşmasından bri il sonra İran anlaşmada qalan digər 5 ölkəyə - Rusiya, Çin, Almaniya, Fransa və Britaniyaya müraciət edərək neft satışı sanksiyalarını yumşaltmayacağı təqdirdə nüvə müqaviləsindəki öhdəliklərdən çıxacağını bəyan edib. Bunun ardınca iyulun 1-də Tehran anlaşmadakı uran ehtiyatı miqdarını, 8 iyulda isə zənginləşmiş uran limitini keçdiyini bəyan edib. Sentyabrın 7-də isə İran uranı zənginləşdirməni 20 faizə qaldırmaq üçün işə başladığını açıqlayıb. "Altılıq" anlaşmasında bu faiz 3,67 idi.

Ancaq məsələ ondadır ki, İranın ali dini lideri ABŞ-la müzakirələri qadağan edib. Əgər görüş olacaqsa, bunun üçün Ruhaninin dini lideri razı salması lazımdır. Ancaq indi Boltonun getməsi və Vaşinqtonun İranın neft satışına qoyulan embarqonu yumşaltması yenidən danışıqlar fürsəti yaradır.

Yeri gəlmişkən, bir neçə həftə əvvəl İranın xarici işlər nazirinin müavini Abbas Əraqçi də Vaşinqtonun neft sanksiyalarını yumşaltmağa başladığını demişdi. Bunun ardınca isə Çinin və Rusiyanın İranın enerji sektoruna sərmayə yatırması ilə bağlı xəbərlər mediada yer alıb.

ABŞ-ın İrana qarşı müdaxiləsinin əsas tərəfdarı olan İsraildə isə Boltonun gedişi ciddi məyusluq yaradıb. Çünki bu, Trampın sərt xətti yumşaltması və Ağ Evdəki İran əleyhdarlarının ciddi zəifləməsi deməkdir. Tramp Yaxın Şərqdə İranla danışıqlara getməsi İsrailin hazırkı müharibə tərəfdarı hökuməti üçün ciddi itkidir. Xüsusən də seçkilərə 5 gündən də az vaxt qaldığı halda.

Söz düşmüşkən, Bolton ötən ilin oktyabrında Moskvaya, oradan da Cənubi Qafqaz respublikalarına səfər edib.

Analitiklər Boltonun regiona səfərinin İrana qarşı bölgə ölkələrinin mövqeyini və təsir imkanlarını araşdırmaq olduğunu yazırdı. Ehtimal olunur ki, ABŞ rəsmisi Cənubi Qafqaz ölkələrinin İrana qarşı mümkün hücumu zamanı tutacağı mövqeni öyrənmək istəyib. Və regiondan "əlidolu" dönə bilməyib.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 189 (7359) 13 sentyabr 2019



# Qarabağ probleminin həllinə vasitəçi - əngəllər

## Konfliktin nizamlanması üzrə köhnə format artıq işləmir; **gürcü politoloq:** "Bölgədə konfliktlərin yoluna qoyulmasına əsas maneə Rusiyadır..."

**Bir neçə gün öncə işğal altında olan və etnik təmizlənmə aparılan Dağlıq Qarabağda daha bir seçki tamaşası keçirildi. Bu dəfə "yerli seçkilər" adı altında. Əsas hədəf şübhə yox ki, "DQR" adda ikinci qondarma erməni dövlətinin varlığını dünyaya nümayiş etdirmək idi. Təbii ki, bu seçkilərin "legitimliyini" separatçılardan və işğalçı Ermənistandan başqa heç kim, o cümlədən ATƏT-in Minsk Qrupu həmsədrləri və qonşu ölkələr, Türkiyə, Gürcüstan və İran tanımadı.**




"Gürcüstan da bu məsələdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyinə dəstək ifadə elədi". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri tanınmış gürcü politoloq, Tiflisdəki "Black Sea" İnformasiya Agentliyinin redaktoru Qela Vasadze Axar.az-ın rus versiyasına müsahibəsində bildirib.

"İrəvan sübut eləməyə çalışır ki, Dağlıq Qarabağ dövlət orqanları olan müstəqil dövlətdir. Əks halda, seçki keçirməzdilər", - deyə o qeyd edib. Onun sözlərinə görə, Ermənistanda Gürcüstanın bu məsələdə başqa cür hərəkət etməsinə ümid bəsləyə bilməzdilər: "İrəvanda hamı əla başa düşür ki, Gürcüstan birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bu məsələdə başqa variantlar ola bilməz".

**Bu üzücü münaqişənin həlli imkanlarına gəlincə, gürcü ekspert hesab edir ki, Qarabağ ixtilafı ətrafında hazırkı vəziyyət Rusiya Güney Qafqaz siyasətində ciddi faktor qismində mövcud oluncaya qədər davam edəcək.** "Hələlik bu münaqişəni həll eləmək mümkün deyil. Hansısa aralıq, lokal qələbələr qazanmaq və ya hansısa məğlubiyyətlərə məruz qalmaq olar, ancaq istənilən vasitə ilə problemin qəti şəkildə çözümündən danışmağa dəyməz. Çünki bu, Kremlin maraqlarına daxil deyil", - deyə o əlavə edib.

*****

Rusiya isə tərs kimi, ATƏT-in Minsk Qrupunun iki əsas həmsədrindən biri olaraq qalır. Daha dəqiqi, o, münaqişənin dinc həllinə ən güclü təsir imkanı olan dövlətdir. Çünki işğalçı Ermənistan üzərində ciddi və həlledici söz sahibidir. Təəssüf ki, rəsmi Moskva bu imkandan istifadə eləməyə tələsmir, ona görə ki, gürcü ekspertin də vurğuladığı kimi, bu, onun maraqlarına daxil deyil. Üstəlik, Rusiya münaqişədə, faktiki, tərəfdir. Hərçənd Rusiya rəsmiləri daima Dağlıq Qarabağ konfliktinin həllinin tərəfdarı olduqlarını bəyan edirlər.

Yaranmış vəziyyətdə beynəlxalq təşkilatların diplomatik təşəbbüs imkanları xeyli məhdud görünür. Həm də o səbəbə ki, Rusiya BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biridir və istər Qarabağa dair BMT-nin 4 məlum qətnaməsinin icraya yönəldilməsi, istərsə də təcavüzkar Ermənistana sanksiyalar tətbiq olunması məsələsində Moskvanın iradəsi həlledicidir. Nədən ki, Rusiyanın qərarlara veto qoymaq hüququ var.

Söz yox ki, Ermənistan rəhbərliyi özündə iradə tapıb öz xalqını sülhə hazırlaya bilsə, yəni Azərbaycanla sülh anlaşması olmadan ölkənin inkişaf perspektivinin olmadığına erməni cəmiyyətini inandırsa, qısası, işğalçı tərəf "daşı ətəyindən töksə", konfliktin dinc həlli Rusiyanın və ya başqa vasitəçilərin təşəbbüsü olmadan da yaxınlaşa bilər. Hər necə olmasa, bu iki qonşu xalq gec-tez dinc-yanaşı yaşamaq zorundadır. Bu da ilk növbədə Ermənistanın davranışından və apardığı siyasətdən asılı olacaq. Yerdə qalanlar, o sırada beynəlxalq təşəbbüslər ikinci plandadır. Yaxud İrəvan güc yolu ilə sülhə vadar edilməlidir. Bunu da ya Azərbaycan edəcək, ya da beynəlxalq güclər...

*****

"ATƏT-in Minsk Qrupu Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması üzərində çalışır və biz də bu prosesdə vasitəçilik edirik. Lakin təbii ki, istənilən münaqişənin həlli tərəflərdən asılıdır". Bunu dünən ATƏT Parlament Assambleyasının prezidenti Giorgi Tsereteli Ermənistanın Gürcüstandakı səfiri Ruben Sadoyanla keçirdiyi görüşdə bildirib.

**Onun sözlərinə görə, münaqişənin həlli üçün siyasi iradə tələb olunur.** "İstər Rusiya-Gürcüstan, istərsə də Dağlıq Qarabağ münaqişəsi regionun ümumi inkişafına mane olur. Buna görə də əsas vəzifə bu münaqişələrin həlli üçün mümkün olan hər şeyi etməkdir. Bu istiqamətdə dəstək tələb olunur və ATƏT bu prosesdə fəal iştirak edir", - deyə o qeyd edib.

Məsələ də ondadır ki, ATƏT-in Dağlıq Qarabağ ixtilafının həlli üçün yaratdığı Minsk Qrupu mövcud olduğu 25 ildə problemin dinc nizamlanması yönündə heç bir ciddi irəliləyişə nail ola bilməyib. Reallıq belədir ki, konfliktin nizamlanması üzrə köhnə format daha işləmir. Bunun bir səbəbi Rusiyanın yaratdığı əngəldirsə, digər səbəbi cəzasızlığa arxayın olan Ermənistanın konstruktiv danışıqlardan yayınmasıdır. Deməli, qalır radikal yol - müharibə variantı.

2016-cı ildəki 4 günlük aprel savaşı bu mənada düşmənə ciddi nəticə çıxarmaq üçün son dərs olmalıdır - hansı ki, işğalçı ordu haqda "məğlubedilməzlik" mifini darmadağın edib, "qəti qələbə" eyforiyası ilə yaşayan erməni toplumunu dərin məyusluğa soxub. Bunun nəticəsi idi ki, az öncə baş nazir Nikol Paşinyan ilk erməni lideri kimi etiraf elədi ki, müharibə hələ bitməyib. Düşmən ölkədə 500-dən çox erməni hərbçisinin məhvinə səbəb olan aprel hərbi uğursuzluğu ilə bağlı parlamentin xüsusi komissiyasının yaradılması da az şey demir.

Yeri gəlmişkən, komissiya həmin döyüşlərdə iştirak etmiş əsgər və zabitləri dindirməyə hazırlaşır. Bu haqda Ermənistanda nəşr olunan "Qraparak" ("Meydan") qəzeti yazıb (Virtualaz.org). Bildirilir ki, ilk növbədə dindirməyə aprelin 2-də, yəni hərbi əməliyyatlar başlayan gün döyüş mövqelərində olan hərbçilər cəlb ediləcək. Məlumata görə, artıq Müdafiə Nazirliyinin əməliyyat idarəsinin keçmiş rəis müavinləri dindirməyə çağırılıb.

Xatırladaq ki, aprel döyüşləri zamanı Azərbaycan ordusunun əks-həmlə edən bölmələri düşmənin uzun illərdir möhkəmləndirilmiş müdafiə xəttini iki istiqamətdə - cənub-şərq və şimal istiqamətlərində yarıb. Ordumuza düşmənin müdafiə xəttini darmadağın etməyə cəmi 40 dəqiqə vaxt lazım olub. Hücuma keçən bölmələr cənub istiqamətində Lələtəpə yüksəkliyini, şimal istiqamətində isə Talış yüksəkliklərini azad edib. Nəticədə minlərlə hektar ərazi düşmən işğalından azad edilib. Döyüşlərin sonrakı günlərində düşmənin əks-hücum cəhdləri boşa çıxıb, aprelin 5-də tərəflər Rusiya rəhbərliyinin israrları nəticəsində atəşkəsi bərpa etməyə razı olublar. Lakin aprel döyüşlərində düşmənin aldığı zərbə İrəvanda siyasi böhran yaradıb və bu böhran sonradan hakimiyyət dəyişikliyinə aparan səbəblərdən birinə çevrilib...


Erkan Özoral

## "Türkiyə və Azərbaycan Qarabağ məsələsində eyni çevrələrlə üz-üzə gəlir" - səfir

**"Türkiyə və Azərbaycan olaraq mədəniyyətimizlə, tariximizlə bir millət, iki dövlətik". Bunu dünən Bakıda keçirilən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısında Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib.**

Səfir bildirib ki, Türkiyə və Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrlə qürur duymalıyıq, bu prosesi davam etdirməkdə israrlıyıq. Diplomat deyib Türkiyə Azərbaycanın ən böyük yarası olan Dağlıq Qarabağ probleminin tez bir zamanda həllini vacib sayır. "Biz bu məsələdə dünyada eyni çevrələrlə üz-üzə gəlməkdəyik. Xocalıda yüzlərlə insanı qətlə yetirən ermənilər Türkiyəni soyqırım törətməkdə ittiham edirlər. Bütün bu qarayaxmalara qarşı gerçəkləri dünyaya göstərmək Türkiyə və Azərbaycan mediası üzərinə düşən ən böyük vəzifələrdən biridir", - deyə səfir qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 189 (7359) 13 sentyabr 2019

# Dərs kitabları ilə bağlı yeni problem-günahkar kimdir?

**Azərbaycanda çap olunan dərsliklərdəki problemlər məsələsi yenidən gündəmə gəlib. Belə ki, deputat Naqif Həmzəyev sosial şəbəkələrdə yazıb ki, özəl nəşriyyatların çap etdiyi dərs vəsaitləri bəzən xalqımızın, millətimizin tarixinə, mənəviyyatına uyğun olmur: "Ali məktəblərə hazırlaşanlar üçün "Azərbaycan tarixi" məlumat kitabının üz qabığının üzlüyünün dizaynının, ibtidai sinif dərsliyində cədvəlin Ermənistan bayrağı fonunda tərtib olunması nə dərəcədə doğrudur?"**

N.Həmzəyev əlavə edib ki, təbiətdə 7 rəng və bu rənglərin saysız-hesabsız çalarları olduğu halda Ermənistan bayrağını əks etdirən, bir-birinə uymayan, ardıcıl 3 rəngdən istifadə olunması narahatlıq yaradır və aidiyyəti qurumlar bu məsələyə laqeyd qalmamalı, ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən məqamlara münasibət bildirməlidirlər.

Məsələ ilə bağlı **təhsil eksperti Kamran Əsədov** "Yeni Müsavat"a bildirib ki, əslində deputatın qabartdığı vəsait dərslik hesab olunmur: "Bu, şəxsi müəlliflərin kitablarıdır və nəşriyyatlar tərəfindən müstəqil olaraq çap olunur. Yəni qeyd edilən məsələ Təhsil Nazirliyi və yaxud da Dövlət İmtahan Mərkəzinin nəzarət etdiyi prosedur qayda deyil. Təbii ki, bu cür halların baş verməməsi yaxşı olardı. Ancaq məsələ, sadəcə olaraq, müəllifin təxəyyülünün nəticəsidir. Senzura olmadığı üçün hər kəs rahatlıqla kitab nəşr edə bildiyinə görə bu cür texniki qüsurlar ortaya çıxır. Ancaq mən

## Ekspert: "Bu, şəxsi müəlliflərin kitablarıdır və nəşriyyatlar tərəfindən müstəqil olaraq çap olunur"




əminəm ki, o müəlliflərin də heç birinin bu cür məqsədi olmayıb. Ola bilər ki, qrafik ustası, dizayner rəng verdiyi zaman uyğunsuzluq yaranıb. Düşünürəm ki, bir mərkəz yaradılmalı və kütləvi nəşrlər orada yoxlanılmalı, sonra çapa buraxılmalıdır. Onu da deyim ki, həmin resurslar 2017-ci ildə nəşr edilib. Yəni həm köhnədir, həm də Təhsil Nazirliyinə, Dövlət İmtahan Mərkəzinə aid olmayan müəlliflər tərəfindən nəşr edilən vəsaitlərdir".

**Ekspert qeyd edib ki, dərsliklərin hazırlanması qaydası başqadır:**

"Tender elan olunur ki, məsələn, 5-ci sinif üzrə dərsliklər hazırlansın. Bu zaman nəşriyyatlar müəllif komandası yığıb, tenderə hazır kitab nüsxəsini göndərirlər. Tenderdə dərsliklər qiymətləndirilir və ən yüksək qiymət alan dərslik qalib gəlir. Orta ümumtəhsil məktəblərində istifadə olunan dərsliklərin məsuliyyəti birbaşa Təhsil Nazirliyinə aiddir. Orada gedən səhvlərə də cavabdeh olan nazirlikdir. Çünki məhz nazirliyin ekspertləri dərslikləri seçirlər. Məsələn, tenderə minimum 2 dərslik daxil olur və ən yüksək qiymətləndirilən orta ümumtəhsil məktəblərində istifadə olunmaq üçün qəbul edilir. Təbii ki, bir çox hallarda dərslikləri yoxlayan ekspertlər müəlliflərdən savadlı və təcrübəli olmadıqları üçün həmin qüsurları da başa düşmürlər. Söhbət elmi, texniki, redaktə xarakterli qüsurlardan gedir. Bunlardan isə ən ciddi olanı elmi qüsurlardır. Məsələn, həqiqəti əks etdirməyən faktlar olur, şagirdlərin yaş xüsusiyyətinə uyğun gəlməyən məqamlar verilir və sairə. Bunlar ilk növbədə nəzərə alınmalıdır. Ekspertlər bunları görmürlər və dərsliklər məktəblərə ayaq açır. Biz yalnız dərsliklər istifadə edilən zaman qüsurları görmüş oluruq".

**Ekspert qeyd edib ki, dərsliklər çap olunandan sonra geniş ictimai müzakirəyə çıxarılmalıdır:** "Dərsliklər şagird tutumu çox olan məktəblərə göndərilməlidir ki, orada yoxlama aparılsın. Yoxlanılsın ki, bu dərsliklərdə ciddi qüsurlar var, yoxsa yoxdur. Əgər qüsur varsa, bu, aradan qaldırılmalıdır. İşi təkcə Təhsil Nazirliyi deyil, dediyim qaydada böyük kollektivlər həyata keçirməlidir. Bundan əlavə, onu da bildirim ki, tenderlərin də vaxtı az olur. Yəni 2-3 aya kitab hazırlamaq olmaz. Uşaq belə dünyaya 9 aya gəlir. Yarımçıqdırsa, təbii ki, sağlam deyil. Dərsliklər də 3-4 ay yoxlamadan keçməlidir. İctimai müzakirələrə də çıxarıldıqdan sonra buraxılmalıdır. Digər tərəfdən də alternativ dərsliklər olmalıdır. Bütün ölkə üzrə biz bir dərslik ortaya qoyuruq. Bu da doğru deyil. Hər şagirdin bacarığına uyğun dərslik olmalıdır. Məsələn, A sinfi ən çətin dərsliklərdən istifadə edirlərsə, o savadda olmayan B sinfi alternativ dərslikdən istifadə etməlidir. Düşünürəm ki, bu mexanizmlər hazırlanarsa, uğurlu olar. Ən əsası da dərsliklər adi bir şöbə tərəfindən deyil, ayrıca qurum olan Dərslik İdarəsi tərəfindən yoxlanılmalıdır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Türkiyə dərnəkləri başqanları Bakıda

## "Türk Dünyası Şəhid və Qazilər Birliyi qurmaq niyyətindəyik"

**Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyi və Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin dəvəti ilə Türkiyə Əməkli Subaylar Dərnəyinin, Türkiyə Müharibə Qazilər Dərnəyinin, Türkiyə Harp Malülü Qazilər və Şəhid Yaxınları Dərnəyinin, Kıbrıs Türk Müqavimət Təşkilatının rəhbər heyəti və üzvlərindən ibarət nümayəndə heyəti Bakının işğaldan azad olunmasının 101 illiyi münasibətilə keçiriləcək tədbirlərə qatılmaq üçün Azərbaycana səfərə gəlib.**

Qonaqlar ilk olaraq Fəxri Xiyabanda mərhum prezident Heydər Əliyevin, akademik Zərifə Əliyevanın məzarlarını, Şəhidlər Xiyabanını və Türk Şəhidliyini ziyarət etdilər.

Ziyarət başlayan zaman Bakı Şəhər İcra Hakimiyyətinin keçmiş başçısı, baş nazirin müavini Hacıbala Abutalıbov iş yerinə gedirdi və o, qonaqlarla görüşdü. Tərxis Olunmuş Hərbiçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli onları Abutalıbovla tanış etdi.

General-leytenant Yaşar Aydəmirov və E.Həsənli 20 Yanvar şəhidləri haqqında türkiyəli qonaqlara geniş məlumat verdilər.

Daha sonra Azərbaycan və Türkiyə qaziləri E.Həsənlinin təklifi ilə Məşəl önündə xatirə fotosu çəkdirdilər.









**Türkiyə Harp Malülü Qazilər və Şəhid Yaxınları Dərnəyinin başqanı Mustafa İşıq səfərlərinin məqsədi barədə danışdı:** "Dostluğumuzu daha da möhkəmləndirmək istəyirik. Türk Dünyası Şəhid və Qazilər Birliyi qurmaq niyyətindəyik. Belə bir projemiz var. İnşallah, bu niyyətimizi həyata keçirərik. Bir araya gəlmək üçün bizlər də əlimizdən gələni edirik. Yaradacağımız birlikdə Azərbaycan və Kiprdəki Şəhid Ailələri və Qazilər Dərnəyi ilə bir araya gəldik. Getdikcə əlaqələrimizi gücləndirəcəyik. Müsəlman ailəsi olaraq bir arada güclü bir sivil toplum quracağımıza inanırıq".

**Türkiyə Cüdo Federasiyasının sabiq prezidenti İbrahim Öztək Bakının necə azad edilməsindən söz açdı:** "Bu gün Bakının azad olunmasında bir nömrəli rol oynayan Nuru Paşanın anma törənləri üçün buradayıq. Allah hər birinin ruhunu şad etsin. 1918-ci ilin martında təkcə Bakıda 17 min insan qətlə yetirilib. Biz belə faciələrin Azərbaycan və Türkiyədə bir daha təkrar olunmamasını istəyirik. Türkiyə-Azərbaycan iki dövlət, yaşayacaq sonsuzadək".

**E.Həsənli Türk Şəhidliyi önündəki çıxışında 15 sentyabr Bakının azad olunması ilə bağlı Türkiyə hərbçilərinin göstərdikləri şücaətlərdən, iki qardaş ölkələrin birliyindən danışdı:** "Müqəddəs bir məkandayıq. 101 ildir ki, Bakı işğaldan azad olunub. 1918-ci ildə Şərqdə və islam-türk aləmində ilk cümhuriyyət Azərbaycanda quruldu. Amma o zaman paytaxtımız Bakı deyil, Gəncə idi. Müstəqilliyimiz Tiflisdə elan olunmuşdu. Türkiyədən sizlərin babaları, ataları Azərbaycana gəldilər və burada Qafqaz İslam Ordusu quruldu. O qüvvələr Gəncədən Bakıya gələrək 15 sentyabrda Bakını azad etdilər. Biz heç zaman bunu unutmayacağıq. Ötən il Azərbaycan prezidenti İlham Əliyev türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla birlikdə Bakıda böyük bir hərbi parad keçirdi. İki qardaş ölkənin hərbçiləri burada iştirak etdi. Paradda öndə Nuru Paşanın əsgərləri Türkiyə və Azərbaycan bayraqları ilə gedirdi. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Türkiyənin keçmiş prezidenti Süleyman Dəmirəlin də iştirakı ilə bu abidənin açılışı oldu. Azərbaycanın çox yerində - Şamaxıda, Göyçayda, Hacıqabulda, Neftçalada, Bakıda türk məzarları var. İstiqlal savaşında bir olmuşuq. Türkiyənin qurulmasında maddi və mənəvi dəstək olduq. Eləcə də Azərbaycanın da qurulmasında Türkiyədən olan qardaşlarımız bizə dəstəyə gəldi. Dünyada belə bir nümunə yoxdur. 15 sentyabrın önəmi həm də ondan ibarətdir ki, böyük qüvvə sayılan Rusiya imperiyası üzərində burada qələbə qazanıldı. Özü də Osmanlı məğlub olduğu Birinci Dünya müharibəsi vaxtı ordularını ölkəmizə göndərmişdi. Bunu heç zaman unutmaq olmaz. Türkiyə-Azərbaycan qardaşlığı hər zaman davamlı olacaq. Qısa zamanda belə tədbirləri biz Şuşada, Xankəndində və digər işğal altında olan tarixi torpaqlarımızda keçirəcəyik. Tanrı türkü qorusun. Allah şəhidlərimizə rəhmət eləsin".

Ziyarət başa çatdıqdan sonra nümayəndə heyəti Türkiyənin Azərbaycandakı səfirliyi, Yasamal Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı və Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İB-nin birgə təşkilatçılığı ilə Bakının işğaldan azad olunmasının 101 illiyinə həsr olunmuş sərgi tədbirinə qatıldı. 11-15 sentyabr tarixlərində Azərbaycanda səfərdə olacaq nümayəndə heyəti bir sıra tədbir və görüşlərdə iştirak edəcək.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 189 (7359) 13 sentyabr 2019

# Azərbaycanlı xanımların əcnəbilərlə evlənmə sayının artmasına maraqlı reaksiyalar

**Mehriban Zeynalova:** "Azərbaycanlı qadınlar yaşadıqları mühitdən azad olmaq üçün xaricilərə üstünlük verir"

**Fərqanə Mehmanqızı:** "Çoxu buna ölkədən getməkdə çıxış yolu kimi baxırlar"

**Aysel Əlizadə:** "Həmişə başqa xalqla qarışmağın tərəfdarı olmuşam"

**Son vaxtlar əcnəbilərlə ailə quran azərbaycanlı qadınların sayı çoxalıb. Statistik göstəricilərə görə, 2019-cu ilin altı ayı ərzində Azərbaycan Respublikasının vətəndaşları ilə əcnəbilər və vətəndaşlığı olmayanlar arasında 1013 nikah bağlanıb.**

Əcnəbilərlərlə ailə quranların 544 nəfəri azərbaycanlı qadınlardır. Daha çox isə Türkiyə, Rusiya və Gürcüstan vətəndaşları ilə evlənməyə üstünlük verilir.

**"Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova** bildirib ki, azərbaycanlı qadınlar yaşadıqları mühitdən azad olmaq və iqtisadi durumlarını düzəltmək üçün xaricilərlə ailə qurmağa üstünlük verir: "Bizim qadınlar əcnəbilərin ailəyə sadiq və iqtisadi baxımdan üstün olduqlarını düşündükləri üçün bu addımı atırlar. Həmçinin bəzi qadınlar yaşadıqları mühitdən qaçmaq üçün xarici vətəndaşla nikaha girir. Hesab edirlər ki, ölkəmizdə istədikləri azadlıq yoxdur. Belə ki, ənənələr, davranışlar və müəyyən qanunlar onların azad olmasına şərait yaratmır. Bu səbəbdən də başqa ölkədə daha sərbəst olacaqlarını düşünürlər. Həmçinin, ikinci dəfə ailə qura bilməyən və uşaq vaxtı zorlananlar da əcnəbilərə üstünlük verir. Ümumiyyətlə, xarici vətəndaşla ailə quran qadınlar psixoloji öyrəşmə prosesini keçdikdən sonra boşanma halları olmur. Ailə sabit qalır. Hər zaman əcnəbi kişilərin zorakılığa meyli olmadığı deyilir. Amma bir çox ölkələrdə zorakılıq halları bizdən çoxdur. Əcnəbilərin öz qaydaları, davranış və ailə modeli var. Ona görə də bizim qadınlar ölkələrin qanunlarını bilmədikləri üçün xeyli çətinlik çəkirlər".

Amma bütün hallarda, yenə də müəyyən məqamlar nəzərə alınmalıdır. Əcnəbi ilə ailə həyatı qurmaq - dəyərləri, mədəniyyətləri, düşüncə tərzləri fərqli olan insanların izdivacıdır.

**Psixoloq Fərqanə Mehmanqızı "Yeni Müsavat"a bildirdi ki, əvvəllər azərbaycanlı kişilər əcnəbi qadınlarla ailə qururdular:** "Hətta bu, tendensiyaya çevrilmişdi. Elə bir nəsil yoxuydu ki, orada əcnəbi gəlin olmasın. Yəni əvvəldən bu ənənə olub, xarici gəlin bizim cəmiyyətdə qəbul olunub. İndi isə azərbaycanlı qızların əcnəbi vətəndaşla ailə qurması halları çoxalıb. Lakin bu məsələdə səbəb olaraq bir ana xətt yoxdur, müxtəlif amillər göstərmək olar. Mən düşünürəm ki, ilk növbədə əcnəbi ilə ailə qurmaq istəyənlərin çoxu buna ölkədən getməyin çıxış yolu kimi baxırlar. Hərçənd ki, Azərbaycandan belə getməyi qəbul eləmirəm. Sadəcə, psixoloji uyğunluq varsa, xarici ilə ailə qurmaqda problem görmürəm".




**F.Mehmanqızı hesab edir ki, azərbaycanlı kişilərdə qadınına sahiblənmək damarı daha güclüdür:** "Heç bir xarici kişidə bu cür möhkəm xüsusiyyət yoxdur. O baxımdan mən bizim kişiləri üstün tuturam. Əgər azərbaycanlı qızlar bizimkilərin qısqanclığını səbəb göstərirsə, şizofrenik dərəcədə qısqanclıq xaricilərdə də var. Məsələn, türklərdə qısqanclıq daha çoxdur.

Biz hər gün onların telekanallarından görürük ki, nə qədər ailədaxili qətllər, cinayətlər baş verir. Amma azərbaycanlı qızlar türklərə də ərə gedirlər".

**Psixoloq Azad İsazadə isə deyir ki, hər bir proses müxtəlif amillərin təsiri altında formalaşır. Onun sözlərinə görə, bu amillərin hamısını birləşdirsək, sərhədlərin açılmasını xüsusi qeyd etməliyik:** "İnsanların başqa ölkələrə gedi-gəlmək, yaşayış fərqlərini müqayisə etmək imkanları genişlənib. Amma bəziləri var, pasient kimi mənə də müraciət edənlər olub, onlar deyirlər ki, ömrümdə heç türkə? yaxud iranlıya ərə getmərəm. Bu məsələdə kimin nə istədiyinə baxmaq lazımdır. Seçim olan yerdə əcnəbi ilə ailə qurmaq prosesi genişlənir. Vaxtilə seçim yox idi, əcnəbi az idi. Azərbaycanlı ilə evlənmək istəməyən ən yaxşı halda rus, erməni, yəhudi və uzaqbaşı ukraynalı ilə ailə qura bilirdi. Ancaq onda da din faktoru önə çıxırdı, onlar xaçpərəstdirlər, çoxu qəbul eləmirdi. İndi dini mənsubiyyətə baxılmır, hamı ilə ailə qura bilərik. Bu məsələdə din prinsipial rol oynamır".

**A.İsazadənin fikrincə, iqtisadi faktorlar da var:** "İnsan gedir, görür, xoşuna gəlir. Amma ora köçəndən sonra problemlərlə qarşılaşır. Bir var ki, turist kimi gedəsən, ölkə xoşuna gəlsin, bir də köçüb yaşamaq, fərqi var.

Məsələn, iqtisadi və siyasi miqrantlar problemlərlə qarşılaşırlar. Lakin çoxları razılaşır ki, maaş yaxşıdır, mühit normaldır, insana qiymət verilir".

**Yazıçı Aysel Əlizadə azərbaycanlı kişinin də, qadının da əcnəbi ilə nikaha girməsinə müsbət baxır. Onun fikrincə, bu halda genetika inkişaf edir:** "Tibb elmi də təsdiqləyir ki, ayrı-ayrı genefondların törəməsi sağlam, gözəl, şaxəli olur. Azərbaycanda əvvəllər qohum evliliyi ənənəvi idi, yaxşı ki, getdikcə azalır. Çünki nəticəsi mənfi olur. Əgər irsdə xəstəlik varsa, qohumlar evlənəndə bu xəstəlik övlada ikiqat ötürülür. Hətta birində olmasa da, növbəti nəsildə baş verir. İnkişaf etmiş cəmiyyətlərdə isə qarışıqlıq çoxdur. Polyakla bir yəhudi, almanla bir holland evlənir, sağlam övladlar doğulur".

**A.Əlizadənin fikrincə, əcnəbi ilə evlənmək həm də beyin hadisəsidir:** "Onların uşaqlarının qurduqları cəmiyyət proqressiv olur. Amma türklə evliliyə xarici ilə ailə qurmaq kimi baxmıram, çünki eyni soyuq. Hər halda, ayrı coğrafiyadır və müsbət nəticə verir".

**Yazar xanımın sözlərinə görə, əcnəbi ilə ailə qurmaq hallarının çoxalma səbəbləri müxtəlifdir:** "Bir xalq başqa xalqdan heç nə fərqlənmir. Sadəcə, dil, mədəniyyət, məişət fərqlənə bilər. Mən həmişə başqa xalqla qarışmağın tərəfdarı olmuşam və bu haqda romanımda yazmışam.

Çünki belə nikahlar zamanı mədəniyyətimiz yayılır, sağlam uşaqlar olur, qəbiləlikdən çıxırsan, bəşəri olursan. Bir şərtlə, dilini, kimliyini itirməyəsən.

Təbii ki, belə evliliklərdə sosial və mental səbəblər istisna deyil. Amma qadınımız azadlığa çıxması üçün deyil, dünyəvi ailə qurmaq üçün bu addım atsa daha yaxşı olar".

Onu da deyək ki, İslam dini müsəlman kişilərin xristian və yəhudi qadınların ismətli, iffətli və namuslu olanları ilə evlənməyə icazə verir, digər kafirlərlə isə (ateist, bütpərəst və s.) evlənmək qadağandır.

"Mömінlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin (yəhudilərin və xaçpərəstlərin) azad və ismətli, iffətli, özlərini zinadan və nəfslərini haram şeylərdən qoruyan qadınları mehrlərini verdiyiniz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə evlənmək üçün sizə halaldır...". (əl-Maidə, 5)

**Emil SALAMOĞLU, "Yeni Müsavat"**

## Goranboyda itlərinə toy edən sahibkarın başı dərddə

### Qalib Mustafayev dostlarından polisə niyə şikayət yazıb?





**"Çaldığın balaban yastıdı, İtlər insanın dostudu".**

Bu sözlər Goranboyda, it toyunda bir aşığın oxuduğu mahnıda yer almışdı. İtlərinə toy edən, bununla məşhurlaşan isə iş adamı, "G Group"un prezidenti Qalib Mustafayev idi.

Son günlər Qalib Mustafayevin adı yenidən gündəmdədir. Bu dəfə dostlarından şikayətçi qismində. O, dostlarından polisə şikayət yazıb. Goranboylu iş adamı ümumilikdə 300 min manat pulunun dostları tərəfindən, həm də cinayət yolu ilə mənimsəndiyini iddia edib. Şikayətin məğzindən aydın olur ki, İsmayıllı rayon sakini Əvəz Nadirov dostu Aftandil Məmmədovla birlikdə Qalib Mustafayevə məxsus "Sədərək" ticarət mərkəzində yerləşən "Elvar" mağazasında 186 min manat dəyərində mebelləri oğurlayıb. Bundan başqa, Nəriman Məmmədov həmin ticarət mərkəzində yerləşən Qalib Mustafayeva məxsus anbardan 109 min manat dəyərində müxtəlif növ məişət əşyaları oğurlayıb.

Criminal.az saytı yazıb ki, hər iki şəxsin barəsində Qaradağ Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin 177.3.2-ci maddələri ilə cinayət işi başlanıb.

"Yeni Müsavat"ın əməkdaşı məsələ ilə bağlı Qaradağ Rayon Polis İdarəsinin İstintaq Şöbəsinin müstəntiqi Samir Ağayevlə əlaqə saxlayıb. Müstəntiq cinayət işinin başlandığını təsdiqləyib, lakin istintaq sirrinə əsaslanaraq əlavə məlumat verməkdən imtina edib.

Xatırladaq ki, Qalib Mustafayev 2017-ci ilin aprelində Amon və İsida adlı cins itlərinə toy etməsi ilə gündəmə gəlmişdi. Toy məclisi Goranboy rayonunda həmin iş adamına məxsus zavodun həyətində baş tutub. Məclisdə çoxlu qonaqlar olub. Onların arasında vaxtilə keçmiş MTN-in Zaqatala və Goranboy rayon şöbələrinin rəisi işləmiş, "Turba Əli" kimi tanınan şəxs də olub. İş adamı itlərin toyuna qonaqları xüsusi dəvətnamə ilə çağırıb. O, əqli qüsurlu şəxsi də məclisə çağıraraq qonaqlarla birlikdə onu ələ salıb, itlərin şərəfinə sağlıq dedizdirib və onunla şit zarafatlar edərək əyləniblər. İş adamı itlərinə plov və kabab bişirtdirib. Həmin yeməklərdən qonaqlar da yeyib. Məclisi aşıq idarə edib, saz və balabanla mahnılar səslənib, itlərin şəninə sağlıq deyilib.

Qeyd edək ki, Qalib Mustafayevin qardaşı Xaliq Mustafayev də biznesmendir və xaricdən Azərbaycana elektronika malları gətizdirir. Qalib Mustafayevin "Bentley" və "Jeep Wrangler", oğlunun və qızının da bahalı "Porshce", "Mercedes" və "Jeep" markalı avtomobillərinin olduğu bildirilir. Qalib Mustafayev itlərinə toy edib pul xərclədiyi bir vaxtda onun bacısı Mustafayeva Nüşabə Hidayət qızı müxalifətin mitinqlərində iştirak edərək dolanışığının aşağı səviyyədə olmasından gileylənib. O, 35 il müəllim işlədiyini və indi aldığı təqaüdün az olduğunu deyib.

**E.HÜSEYNOV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 189 (7359) 13 sentyabr 2019

# "R" hərfli aylar, yəni balıq mövsümü başladı - qiymətlər

## Balığa tələbat yüksəkdir, ancaq...







**Sentyabr ayından etibarən balıq mövsümü başlayır. (Deyirlər ki, balığı adətən "r" hərfi olan aylarda yemək lazımdır). Bu aydan artıq balıq ovçularına kvotalar verilir, bazarlarda diri balıqların satışı başlayır. Bakı dəniz sahilində, Azərbaycan ərazisində Kür və Araz çayları keçdiyi üçün ölkə əhalisi balıq baxımdan ciddi korluq çəkmir. İnsanları narahat edən yeganə məsələ qiymətlər və Xəzər dənizində aparılan müxtəlif geoloji işlər, çirkab sularının axıdılması nəticəsində balıqların azalmasıdır.**

Hazırda balıq bazarında vəziyyət necədir?

"Yeni Müsavat"ın əməkdaşı olaraq "8-ci kilometr bazarı"nın balıq satılan bölməsində olub, qiymətlərlə maraqlandıq. Bazarda əvvəlki kimi natəmiz şəraitdə balıqların satıldığını müşahidə etmədik. Artıq balıq bölməsi digər bölmələrdən tamamilə ayrılıb. Ətraf əraziyə xüsusi qoruyucular vurulub. Balıq satanlar piştaxtanın üzərinə balıqları düzməklə yanaşı, qarşılarındakı iri qablarda diri balıqları da satırlar. Bazarda ən çox kütüm, farel, xan, sazan və ağ-amur (belamur) balıqları satılır.

Satıcılar bildirdilər ki, alıcıları kifayət qədər olsa da, yeni balıqları azdır. Buna görə də qiymətlərdə endirim etmirlər. Hazırda kütüm balığının 1 kiloqramı 8 manata, belamur 6 manata, farel 13 manata, sazan 5 manata, xan balığı da 1 kiloqramı 5 manata satılır. Alıcılar ən çox farel və kütüm balığını alırlar. Ona görə də bazarda ən çox satılan və qiymətində endirim olmayan balıqlar da qeyd etdiklərimizdir. Satıcılar söylədilər ki, bu il kvota azaldılsa da, ümumilikdə Xəzər dənizində balıq tapmaqda çətinlik çəkmirlər.

**Satıcı Aydın bildirdi ki, ötən aylarda xaricdən gətirilən balıqları satırdılar. İndi isə yerli balıqların satışı ilə məşğuldurlar:** "Balıqların hamısı yenidir. Qablarda olan diri balıqlardan başqa, piştaxtanın üzərində satdığımız da bu günün balıqlarıdır. Ötən aylarda Azərbaycanda balıqçılar dənizə çıxmadığı üçün xaricdən mal alırdıq. Xaric dedikdə daha çox Dağıstandan gətirirdik. Təbii ki, həmin balıqlar buzlu olurdu və burada da soyuducuda saxlayırdıq. İndi isə balıqçılar dənizə, çaylara çıxırlar. Balıqları cənub bölgəsindən gələn balıqçılardan alırıq. Eyni zamanda Bakıda balıq ovlayan balıqçıların da mallarını götürürük. Aldığımız balığın üzərinə bəzən heç 1 manat qoymuruq. Axşama doğru balıq xarab ola bilir. Ona görə də günortadan sonraya qədər satıb, evə gedirik. Bu baxımdan qiyməti çox yuxarı etmirik ki, satılsın".

Qanunvericiliyə əsasən, balıq və digər su bioresurslarının sənaye ovu üçün balıqovlama bileti ödənişlidir və 1 il müddətinə verilir. Nazirlər Kabinetinin 02.06.2017-ci il tarixli 243 №-li Qərarı ilə təsdiq edilmiş "Balıq və digər su bioresursların ovunun Qaydaları"na görə balıq və digər su bioresurslarının sənaye ovuna balıqovlama biletinin verilməsi prosedunu 2 mərhələdən ibarətdir. 1-ci mərhələdə kvota alınması üçün balıqçılıqla məşğul olan hüquqi və fiziki şəxslər ərizə formasını doldurmalı, ov ediləcək yerləri göstərməli, kvotanın balıq növləri üzrə bölgüsünü və ov alətlərinin briqadalar üzrə bölgüsünü göstərməlidir. Eyni zamanda mülkiyyətində və icarəsində olan gəmi və ya qayığa istifadə hüquqlarını təsdiq edən sənədin notarial qaydada təsdiq edilmiş surəti əlavə edilir və Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamentinə təqdim olunur. Kvota ayrılmasına razılıq verildikdən sonra kvotanın dəyəri departamentin bank hesabına ödənilir. Ödənişin məbləği hər balıq növü üzrə ayrıca hesablanır. Xarici vətəndaşlar üçün məbləğ 2 dəfə artıqdır. 2-ci mərhələdə artıq kvotanı almış balıqçı mütləq qaydada ETSN-in rəsmi saytının elektron xidmətlər bölməsindən "Sənaye balıq ovuna balıqovlama biletlərinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu" bəndində göstərilən ərizə formasını doldurur, tələb olunan sənədləri əlavə edir və 5 gün müddətində balıqovlama biletini ala bilir. Əgər hər hansı balıqçı balıqovlama biletinin alınması ilə bağlı çətinliklə rastlaşarsa, departamentə və ya nazirliyin 168 nömrəli "qaynar xətt"inə müraciət edə bilər.

Nazirlər Kabinetinin 18 mart 2019-cu il tarixli qərarı ilə təsdiqlənən "2019-cu il üçün "Balıq və digər su bioresurslarının ovunun ümumi yol verilən miqdarı (kvota)"sına əsasən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində balıq və digər su bioresurslarının sənaye ovu üçün kvota 2 min 327,6 tondur.

Bu, 2018-ci illə müqayisədə 33 faizə qədər azdır. Nazirlər Kabinetinin 29 dekabr 2017-ci il tarixli qərarı ilə təsdiqlənən "2018-ci il üçün Balıq və digər su bioresurslarının ovunun ümumi yol verilən miqdarı (kvota)"sına əsasən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində balıq və digər su bioresurslarının sənaye ovu üçün kvota 3 min 455 ton olub.

Balıq mövsümündə insanları narahat edən məsələlərdən biri də zəhərlənmədir. Balıqdan zəhərlənmə halları-na tez-tez rast gəlinsə də, əslində qaydalara əməl edilərsə, heç bir zəhərlənmə olmaz.

**Məsələ ilə bağlı Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən "Yeni Müsavat"a bildirilib ki, insanların təzə balıq seçərkən nələrə diqqət etmələri ilə bağlı təlimat hazırlayıblar. Həmin təlimatdan bəzi müddəaları təqdim edirik:**

*Təzə balığın dərisinin səthi təmiz, sərt və parlaq olur, az miqdarda şəffaf selik ilə örtülür. Eyni zamanda pulcuqları hamar və parlaq, dərisi isə ətinə möhkəm yapışmış olur, quyruğu sallanmır. Köhnə balıq əti isə yumşaq təbəqəyə malik olur;*

*Təzə balığa barmaqla əl vurduqda ət əvvəlki vəziyyətini yenidən alır, köhnə balıqda isə barmaq izi qalır;*

*Balığı dik saxlayaraq duruşuna da fikir vermək lazımdır. Təzə balığın quyruq hissəsi dik, köhnə balıqda isə sallaq olur;*

*Təzə balığın qəlsəməsi tünd-qırmızıya, köhnə balığınkı isə boz rəngə çalır. Təzə balığın əzələsi bərk, elastik olub, sümükdən çətinliklə ayrılır;*

*Balıq digər qidalarla eyni yerdə saxlanılmamalıdır. Satış ərazilərində balıqların günəş görməyən və gigiyenik mühitdə, təmiz üsullarla, üzəri buzla örtülü olaraq qorunması önəmlidir;*

*Təzə balıqların orqanları dağılmamış, əzələləri möhkəm və gərgin, köhnə balıqların orqanları isə bulanıq rəngdə və asanlıqla bir-birindən ayrıla bilən vəziyyətdə olur. Balıq məhsullarının qida təhlükəsizliyi göstəricilərinə uyğunluğunu və xüsusiyyətlərini qorumaq üçün onların soyuq və gigiyenik mühitdə saxlanılması vacibdir. Balıqlar dondurucuda saxlanılmalıdır.*

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir.**




## Bakıda 1 milyon dollara "Rolls-Royce" satılıb

### "Rolls-Royce Phantom Tranquillity" avtomobilinin konstruktorları raket texnologiyasından faydalanıblar

**Sentyabrın 12-də "İmprotex Motors" şirkəti Bakıda dəbdəbəli "Rolls-Royce Phantom Tranquillity" avtomobilinin təqdimatını keçirib. Virtualaz.org xəbər verir ki, "İmprotex Motors" şirkətinin baş direktoru Bayram Yaqubov bu model avtomobilin məhdud sayda istehsal edildyini bildirib: "Biz fəxr edirik ki, ilk dəfə belə unikal xarakteristikaya malik avtomobil Azərbaycan yollarına çıxacaq".**

"Rolls-Royce Phantom Tranquillity" avtomobilinin konstruktorları onu yaradarkən Britaniyanın "Skylark" raketinin proqressiv texnologiyasından faydalanıblar. Avtomobilin interyerində kosmik raketlərin istehsalında istifadə olunan bir sıra elementlər, paslanmayan polad və 24-karatlıq qızıl istifadə olunub. Habelə 1906-cı ildə İsveçin Kiruna şəhərinə düşmüş "Muonionalust" meteroitinin bir parçasının bədii işlənməsi salonda yer alır.

"Rolls-Royce Motor" şirkətinin regional direktoru Cullian Cenkinsk açıqlamasında deyib ki, son iki-üç il ərzində Azərbaycan bazarı "Rolls-Royce" avtomobilləri üçün cəlbedici olub. Nəticədə "Rolls-Royce Motor Cars Baku" diler mərkəzi biznesdə uğurlarına görə "İlin dileri" adını qazanıb.

"Bakıda ən prestijli və ən lüks "Phantom Tranquillity" modelinin nümayiş etdirilməsi "Rolls-Royce"nin Azərbaycan bazarında nə dərəcədə maraqlı olduğunu, habelə bu bazarın cəlbediciliyini göstərir. Bu, bizim digər modellərə-"Rolls-Royce Cullinan" və "Rolls-Royce Ghost"a da aiddir", - o deyib.

Qeyd edək ki, beynəlxalq avtomobil jurnallarında standart "Phantom" modelinin qiyməti haqda rəqəmlərə rast gəlinir. Amma ötən il ilk dəfə Cenevrə avtosalonunda nümayiş olunan "Phantom Tranquillity" modelinin qiyməti haqda heç bir informasiya yox idi. Və Cullian Cenkinsk qiyməti ilk dəfə saytımız üçün açıqladı. "Sizin nəşriniz üçün bildirirəm ki, gömrük rüsumlarını və digər xərcləri nəzərə almaqla Azərbaycanda "Tranquillity" modeli 1 milyon dollara satılıb", - o bildirib.

Regional direktor qeyd edib ki, həmin modeldən cəmi 25 ədəd buraxılmışdı və onların hamısı artıq Yaxın Şərq ölkələrində, Çində və digər regionlarda satılıb. "Mənim səlahiyyətimdə isə Böyük Britaniyaya, Avropaya, Rusiyaya və Mərkəzi Asiyaya cavabdeh direktor kimi 4 maşın olub. Onlardan da biri Azərbaycanda satılıb", - Cullian Cenkinsk bildirib.

**Elan**

**Bakı şəhər, Sabunçu rayonu Bakıxanov qəsəbəsi, Mehdi Hüseyn küçəsi, ev 10, 8 nömrəli mənzilin cıxarışı itmişdir. Tapan şəxslərdən xahiş olunur 0553119932 nömrəsi ilə əlaqə saxlasın.**

*******

**Muxtarov Samir Əyyub oğluna məxsus olan Səbayel rayonu Xanlar küçəsi, ev 46, mənzil 10 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 189 (7359) 13 sentyabr 2019




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Məhərrəmlik dönəmini yaşayırıq. Müqəddəs İslam dini müsəlmanlar üçün həyatın bütün sahələrinə aid olan dərslər qoyub. Həyatın elə bir sahəsi yoxdur ki, insan həyatının elə bir tərəfi mövcud deyil ki, mübarək dinimizin bununla bağlı yanaşması olmasın. İslami mətnlərdə insan şəxsiyyəti və ləyaqətinə, eləcə də bu dünyada yaşayışına aid, çox ciddi şəkildə vurğulanan mövzulardan biri də - azadlıq, hürriyyətdir.**

# İnsan nə vaxt həqiqətən azad olur?



**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**

### Hürr - bütün hallarda hürdür

**İmam Sadiqdən (ə) belə bir mübarək hədis nəql edilir:**

"Hürr - bütün hallarda hürdür.

Əgər bir müsibətlə üzləşər, ona səbir edər.

Əgər müsibətlər üzərinə gəlsə, onu sındırmaz.

Əgər əsir düşsə, məğlub olsa belə, çətinlikləri asanlıqla yola verə bilər.

Necə ki, düzgünlük, əminlik zirvəsi olan Həzrət Yusifə (ə) qul götürülməsi, məğlub edilməsi, əsir düşməsi hüriyyətinə, azadlığına təsir göstərə bilmədi, necə quyunun zülmət qaranlığı, onun vəhşət qorxusu, digər başına gələnlər ona təsir göstərə bilmədi.

Nəhayət olaraq, Allah Təala ona Öz lütfini göstərərək, onu malik etdikdən sonra, onu hakim etdikdən sonra təkəbbürlü bir zalımı onun tabeçiliyinə keçirtdi. Rəsul olaraq onu göndərdi və bununla da ümmətə Öz rəhmətini göstərdi. Və elə bu cür səbir, xeyri öz ardınca gətirər.

Bəs səbir ediniz və özünüzü səbir üçün hazır ediniz ki, əvəzi verilsin".

Bu çox qiymətli cümlələrə olduqca böyük diqqətlə nəzər salmaq gərəkdir.

### Hürr insan - bütün hal və vəziyyətlərdə hürdür

Elmin mənbəyi, çeşməsi olan İmam Sadiq (ə) buyurur ki, hürr, mərd, azad insan, azadə ruhiyyəli insan bütün hallarda hürr və azaddır. Yəni əgər insan azadədirsə, istər ölüm təhlükəsi olan zaman mübarək Rəsulun (ə) yatağında uzananda da, istər hicrət edən zaman Peyğəmbərin elçisi (s) tək Məkkədə qalanda da, istər yaxşı olan halda, istər pis imkanı olan halda - hürr, mərd və azad olar.

**Hədisin davamında gəlir:** "...Əgər bir müsibətlə üzləşərsə, ona səbir edər".

Hürr insan, tək yaxşı günündə, sakitçilik olanda hürr deyil. İmamın (ə) mübarək hədisindən anlaşılır ki, insan azadlığı o halda həqiqi hürriyyət adlanır ki, bütün vəziyyətlər və şəraitlərdə azad olsun. İstər başına kül töküləndə, istər Məkkə küçələrində uşaqlar ona daş atanda, istər Həzrət Əbutalib kimi, Həzrət Xədicə kimi insanlarla blokada şəraitində, ac-susuz qalanda, bütün hallarda davam gətirən insan hürdür. Azadə insan o kəsdir ki, hər şəraitdə - Peyğəmbər (s) nəvazişi altında olanda da, ətrafında 40 min düşmən olanda da hürdür. İmam Hüseyn (ə) kimi.

### Allah insanı müxtəlif vəziyyətlərlə sınağa çəkir

**Hədisin davamında İmam (ə) buyurur:** "...Əgər müsibətlər üzərinə gəlsə, onu sındırmaz".

Elə bir vəziyyət olar ki, müsibətlər bir-bir insanın üstünə gələr. İnsan bu vəziyyətdə də hürr və azad olar. İstər Rəsulun (s) ətrafında olanda, istər Rəsulun (s) vəfatını görəndə, istər Əliyə (ə) qarşı zülmü görəndə, istər zalım padşahların sarayları qarşısında dayanıb haqqı elan edəndə, qardaşı ilə ayrılanda, qandallı halda babasının (s) insan elədiyi bir toplum tərəfindən əsirə çevrildikdə belə, Həzrət Zeynəb (ə) kimi azadə və hürr olar.

O, əsil azadəlik, mərdlik və hürriyyət simvoludur.

### Əsirlikdə və zindanda belə azad olmaq gərəkir

**Hədisin davamında gəlir:** "...Əgər əsir düşsə, məğlub olsa belə, çətinlikləri asanlıqla yola verə bilər".

Təbii ki, burada söhbət zahiri məğlubiyyətdən gedir. Möminin dünyada məğlubiyyəti - əslində qələbədir. İnsan haqq uğrunda həyatını qurban verə bilər və ona bəziləri məğlub edilmiş kimi baxa bilər. Amma onların baxışından asılı olmayaraq, həqiqi qələbə elə budur. Çünki haqqın yanında axıradək olub.

Əllamə Hüseyni adlı böyük bir alim barədə danışırlar. Əslən Pakistan müsəlmanlarındandır. Əllamə Hüseyni azad olanda, əsir düşməyəndə, zindanda olmayanda hər zaman öz işini görürdü. Onu əsir edib zindana salanda, yenə də öz işini davam etdirirdi. Bir gün Əllamə Hüseynini zalımlar həbs edirlər. Müsəlmanlarlar ayağa qalxır. İş o yerə çatır ki, zalımlar Əllamə Hüseyniyə yalvar-yaxar edirlər ki, zindandan çıxsın. Əllamə Hüseyni çıxmır. Ona deyirlər ki, camaat sənin azad edilməyini tələb edir, çıx zindandan.

Cavab verir ki, "Mən bu zindanda dərslər qoymuşam, bu dərsləri başa çatdırmayanadək zindandan çıxa bilmərəm. Mən bu insanlarla əhd-peyman bağlamışam. Elə etməyin ki, camaat ikinci dəfə ayağa qalxıb, məni zindana qaytarmağı tələb etsin".

Bax, belə insanlar var. Öz vəzifələrini hər yerdə yetirməyi onlar hər şeydən üstün tuturlar.

Beləliklə, görürük ki, harada yaşamasından asılı olmayaraq, Əllamə Hüseynilər hər zaman hürr və azaddırlar. Mərd elə o insandır ki, hər bir vəziyyətdə bu mərdliyini qoruyub saxlaya bilsin.

### Zahiri məğlubiyyət - bəzən elə qələbənin özüdür

**Hədisin davamında gəlir:** "...Necə düzgünlük, əminlik zirvəsi olan Həzrət Yusifə (ə) qul götürülməsi, məğlub edilməsi, əsir düşməsi hüriyyətinə, azadlığına təsir göstərə bilmədi, necə quyunun zülmət qaranlığı, onun vəhşət qorxusu, digər başına gələnlər ona təsir göstərə bilmədi".

Qul götürüləndə də Həzrət Yusif (ə) azadədir. Zahirdə quldur, amma həqiqətdə onun azadlığı elə budur. Zahirdə məğlubiyyət, zahirdə müvəffəqiyyətsizlik kimi görünmək - əslində digərlərlərinin yalançı zahiri azadlıqlarından minlərlə dəfə üstün olan hürriyyətdir.

Deyilir, Həzrət Yusifi (ə) nə quyunun vəhşəti, nə əsirliyin vəhşəti, nə digər başına gələnlər qorxutmadı. O Həzrətə (ə) nə qul olmasının, nə də hakim olmasının heç bir təsiri yox idi. Onu incidən, zülm verən zalımlar bir gün onun tabeçiliyinə keçəndə belə, Həzrət Yusif (ə) üçün heç bir fərqi yox idi. Bütün bu sınaqlar, imtahanlar onun üçündür ki, insan yetişsin və inkişaf etsin.

### Səbir hər zaman xeyir ilə nəticələnər

**Bu cür də hədisdə buyurulur:** "...Səbir xeyiri öz ardınca gətirər". Rəsulun (s) ona verilən əziyyətlərə dözməsi Həzrət Əlilər (ə), Əbazərlər (ə) yetişdirdi. Həzrət Həmzənin (ə) göstərdiyi o şücaət Həzrət Hüseynlər (ə) yetişdirdi.

Biz tarixə nəzər salsaq, görərik ki, müsəlmanlar on dörd əsrdir çətinliklərə, müsibətlərə səbir edə-edə xeyirə, haqqa gəlib çatıblar. Amma səbir nədir? Zülmə baxıb, ona səs çıxarmamaq səbirdirmi? Xeyr, bu əsla səbir sayıla bilməz! Bu, qorxaqlıqdır. Zülmə dözməyin səbrə heç bir aidiyyəti yoxdur. Zülmə dözmək - zəlillikdir.

**Hədisdə buyurulur:** "...Bəs səbir ediniz və özünüzü səbir üçün hazır ediniz ki, əvəzi verilsin". Bu mübarək hədisdən tam lazımi dərsləri çıxarmaq üçün gərək ilk öncə hürr sözü, daha sonra səbir sözü aydınlaşdırılsın.

### Hürr insan nədən azaddır?

Aydın olur ki, hürr insan o insandır ki, izzəti, şəxsiyyəti, ləyaqəti var və azaddır. Hürr insan nədən azaddır? Öz nəfsinə qul olmasından azaddır. Həqiqi azad ruhiyyəli və mərd insan qətiyyən o şəxs deyil ki, nə gəldi edir və bunu azadlıq bilir. Azad insan - kəsdir ki, iradəsi var, qarnının, şəhvətinin, dünyanın, şöhrətpərəstliyin qulu deyil. Azaddır, istənilən zaman nəfsinə "dur!" deyə bilir.

Bütün digər azadlıqlar da buna bağlıdır. Əgər insan nəfsinin qulu olarsa, həmin o nəfs onu o hala çatdırar ki, qarnına, şəhvətə görə bir gün xəyanətlər edər, rəzilliklərə qol qoyar. O cür insanın bədbəxtçiliyi budur ki, nə qədər nəfsinə görə vəhşilik, yırtıcılıq edərsə, yenə də heyvanlara çata bilməz. Heyvanlar bu gün dünyada insanların qanına susayan, qanını içən, terror edən vəhşi insanlara vəhşilik dərsi deyərlər. İnsan şəhvətdə nə qədər güclü olduğunu insanlara göstərmək istəsə belə, donuzdan irəlidə ola bilməz.

Odur ki, insan, heyvanla bu mənasız yarışmanı boşlayıb, insan qiyafəsini itirməməyin qeydinə qalmalıdır. Xaricdə də, daxildə də insanlığını saxlamalıdır.

### Məsumların (ə) hürriyyəti eynidir

İki yol var. Birincisi, mərd və azad olaraq ləyaqətli, şəxsiyyətli, vicdanlı ömür sürmək. İkincisi isə, nəfsin qulu olaraq aciz bir heyvana bənzəmək. İmam Səccaddan (ə) çox mübarək bir hədis var. İmam Səccad (ə) bir şəxsiyyətdir ki, bütün mümkün çətinlikləri görüb. Görməkdən də başqa, bütün o müsibətləri şəxsən yaşayıb.

Böyük arif ustadlardan biri deyir ki, "Mən İmam Səccadın (ə) çəkdiyi müsibəti Kərbəladakı müsibətdən az saymıram. Bir var Kərbəla hadisəsi baş verə və qurtara. Bir də var ki, Səccad (ə) olasan, bu müsibətləri görəsən".

**Yəni Həzrət Səccadın (ə) yaşayışı, onun səbri, onun şücaəti elə Kərbəlada Həzrət Hüseynin (ə) bədəninin doğranmasıdır. Məsumların (ə) hamısı bir nurdur ki, müxtəlif şəraitlərdə müxtəlif cür parlayıb. İmam Səccad (ə) buyurur:** "Mən utanıram dünyanı onu Yaradandan istəyəm. Bəs necə özümə qıyım ki, məxluqdan istəyəm?" Həzrət (ə) təəccüb edir o insana ki, dünyanı onu yaradan Allahdan yox, onlara həmin dünyanı verə biləndən yox, özlərinin tayı olan digər aciz insandan istəyir.

### Səbir - zülmə deyil, zülmlə mübarizədə olan çətinliklərə dözməkdir

Gələk səbir sözünün üstünə. Hədisdə dəfələrlə "müsibətə səbir etmək", "şəraitlərdə dözümlü olmaq" kimi ibarələr işlənir.

Səbir - zalımların dinə mikroblar ataraq, onu Rəsulallah (s) məntiqindən çıxarmaq üçün istədikləri mənada işlətmələri deyil. İslamın anlamında səbir - mübarizədir. İslamın məntiqində səbir - dinamik mübarizə, zalıma tabe olmamaq, zalımlarla mübarizədə olan çətinliklərə dözməkdir. Zalımın zülmünə deyil, zalımla mübarizədə olan müsibətlərə dözməkdir səbir.

Bir misal çəkək. Elə bil ki, bir nəfər universitetə hazırlaşır. Cəmi on gün qalıb. On gün də yaxşı oxusa, imtahanı gözəl verəcək. Ona deyirlər, bir qədər də səbir et, əziyyətə qatlaş, nəticədə uğur qazanacaqsan. Səbir budur. Səbir odur ki, insan dinamik həyatında və fəaliyyətində hər nə lazımdırsa, onları edir və olan çətinlikləri görərək, onlara səbir edir. Zülmə səbir etmir. İnsan mübariz olur, mətanətli olur və bunları həyata keçirməkdə yaranan çətinliklər qarşısında sınmır. Həmin o çətinliklərə qarşı səbir edir.

### Allaha görə çətinliklərə dözməyin şirinliyi

Azərbaycanın çox böyük İslam alimləri olub. Onların İslamla bağlı, dinlə bağlı və bu kimi mövzularla bağlı araşdırmaları, çatdırışları bu günümüzə də gəlib çatıb. Onlardan biri də əziz və görkəmli alimlərimizdən olan Hacı Nəsrəddin Tusidir. Böyük alim olub. Daha çox astronom, riyaziyyatçı kimi tanınıb. Amma, əslində Şeyx Tusi böyük mütəffəkir kimi tanınmalıdır da.

O kəslər ki, deyir Əhli-Beyt (ə) mədəniyyəti Azərbaycana dünənlərdə gəlib, çox heyifsilənməlidir. Şeyx Tusi və onun kimi onlarla alim ki, dünənlərin insanı deyil!

Tusinin yalnızca "Təcridul-etiqad" adlı kitabını götürək. Ondan sonra dəfələrlə həmin kitaba şərh yazılıb. Dedikləri eynilə bu gün Əhli-Beyt (ə) davamçılarının dedikləridir.

Bir haşiyə çıxım ki, Tusinin kitabının imamətə aid son hissəsini çıxararaq, onu çap edirlər. Tusinin irsinə xəyanət etmək - mənəviyyatımıza xəyanət etmək deməkdir. Hər kim nə ilə razılaşmırsa, nəyi qəbul etmirsə əgər ədəbi, fəlsəfi, kəlami irsdən götürüb onu çıxarsa, bunun axırı nə olar? Çox absurd təşəbbüsdür. Daha da marağı artırır ki, görəsən Tusi nə yazmışdı ki, onu götürüb çıxardılar?

Şeyx Tusi - klassik və korifeydir. İslam alimlərindən adı çəkilə bilən və öndə gedə bilən 10 mütəfəkkiri sıralansa, onlardan biri də Nəsrəddin Tusidir. Niyə onlar tarixdə qala bilib? Çünki onlar həqiqi İslam alimi olublar. Həqiqi İslam alimi o kəsdir ki, mübarək dini yalnız qəbiristanlıq və müəyyən qədər məscidlərlə yox, bütün sahələrlə, elmlərlə tanıtdırır. Hər elm ki, insanı Allaha yaxınlaşdırır - elə İslam elmidir.

**Hacı Nəsrəddin Tusi özünün əxlaqi buyuruşlarından birində deyir:** "Səbir - insanın nəfsinin kərahətli, xoşagəlməyən məsələlərində müəyyən istirablar çəkən zaman, onlara qarşı olan dözümüdür". İnsan Allah deyən kimi yaşayır, Allah istəyən kimi yaşayır, nə çətinliklər olursa da onlara təbii hal kimi baxır və onlara dözür. Onların lazımlı olduğunu anlayır və onlar qarşısında sınmamaq üçün səbir edir.

Həqiqi səbir məktəbi Həzrət İbrahimin (ə) yaratdığı məktəbdir. Allah nə deyirsə edir. Düzdür, çətindir, amma Rəbbi buyurduğuna görə, həmin çətinliklərə dözür. Həmin əməlin şirinliyi də elə olan o çətinliyindədir. Həzrət İbrahimə (ə) əlbəttə ki, oğlunu qurban vermək çətin idi. Lakin, o, bu çətinliyə səbir edir. Və həmin səbrin yekunu da elə xeyir olur. Eyni zamanda o Həzrət (ə) Allah yolunda çətinliyin şirinliyini dadır.

Əlbəttə ki, səbrin hər mənada simvolu - Həzrət İmam Hüseyndir (ə). Allah Təala bizlərə o məktəbi dərk edənlərdən qərar versin.

**Allahım, bizlərə həqiqi hürr və azad həyat yaşamaq ləyaqətini nəsib et!**

**Allahım, bizlərə Sənin razılığın olan kimi yaşamağı nəsib et!**

**Allahım, Sənin razılığın olan kimi yaşayarkən yaranan çətinliklərə səbir etməyi bizlərə nəsib et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 189 (7359) 13 sentyabr 2019

## Bunları bilirsizmi?

* İnsanın bədənindəki qan damarlarının uzunluğu 96,000 km-dir və bu Ekvator xəttindən 2.5 dəfə uzundur.
* Bir insan 70 illik həyatında 48 kilo dəri tökür.
* Bir insan həyatı boyunca 25,000 kub həcmində olan iki üzgüçülük hovuzunu dolduracaq qədər tüpürcək ifraz edir.
* Oyaq olduğu zaman insan beyni bir lampanı yandıracaq qədər elektrikə sahib olur.
* Bir insan ildə 1500 dəfə yuxu görür.
* İnsan bədənində ən güclü əzələ dildədir.
* İnsan gözü 576 meqapikseldir və 10 milyon fərqli rəngi ayırd edə bilir.
* Bir insanın ürəyi həyatı boyunca orta hesabla 1,5 milyon barel, haradasa 200 tankeri dolduracaq qədər qan pompalayır.
* Bir addım üçün insan bədənində 200 əzələ işə düşür.
* İnsan bədənində 5 sm uzunluğunda mismar düzəldəcək qədər dəmir var.
* İlbizlər 3 il yata bilirlər.
* Alışqan Kibritdən öncə ixtira olunub;
* Delfinlər bir gözü açıq yatır.
* Əgər bir stəkan suya 80 dəqiqə qışqırsaq onda su qaynayar.
* Ağ Evdə çəngəl və qaşıqların sayı 13092 ədəddir.
* Dəniz ulduzunun beyni yoxdur.
* Dünyada ən populyar ad -Annadır, bu adı 100 milyona yaxın insan daşıyır.
* Bir ildə 31 557 600 saniyə var.
* İl ərzində hər ABŞ vətəndaşı il ərzində 60, almanlar 120, belaruslar 180 kiloqram kartof yeyir. İslandiyada ən yaxşı içki növlərindən biri kartofdan hazırlanır.
* Ağırlığı 600 kiloqram olan bir göy balinanın ürək damarlarının içinə bir insan sığa bilər.
* Bir bala qütb ayısı doğulduğunda yalnız 450 qram ağırlığında olar. Yetkin olduqlarında isə ağırlıqları 750 kiloqrama çata bilir.
* Dünyanın yaranmasından bu yana keçən zamanı 24 saata sığdırmağa çalışsaq, insanlar bu müddətin yalnız 1 dəqiqə 17 saniyəsini doldura bilər.
* Əgər bir sözü xatırlamaqda çətinlik çəkirsinizsə, yumruğunuzu sıxın. Bu, beyin fəaliyyətinizi artırmağa və yaddaşınızı inkişaf etdirməyə kömək edir.



## Falçı müştərisindən cadunu çıxarmaq adı ilə 1.6 milyon dollar alıb

**Məhkəmə ABŞ-ın Florida ştatında bir falçıya 3 il dörd ay həbs cəzası verib. "Associated Press"in verdiyi məlumata görə, bir qadın Teksasda bir müştəridən, ailəsindən lənətini çıxardığı üçün 1.6 milyon dollar pul alıb.**

İstintaq materiallarına görə, 28 yaşlı Şeri Tina Uvanoviç dələduzluqda təqsirli bilinir. O, aldanmış qadından aldığı bütün pulları ona qaytarmalıdır. İstintaqın məlumatına görə, Uvanoviç 2007-ci ildə Teksas ştatının Hyuston şəhərində qurbanı ilə görüşüb. O, qadının etibarını qazanıb və onun özünü, eləcə də ailəsini Cənubi Amerikadan gələn bir cadunun lənətlədiyinə inandırdı. Uvanoviç zərərin aradan qaldırılmasına kömək edəcək meditasiyalar aparmaq üçün kristallar və şamlar üçün külli miqdarda pul tələb etdiyini bildirdi.

2014-cü ildə Uvanaviç zərərçəkmişə lənət olmadığını etiraf etdi.

Daha öncə xəbər verilmişdi ki, Şotlandiyadan olan medium polisə müraciət edib. O, sosial şəbəkələr vasitəsilə müştəriləri ilə ünsiyyətdə olan bir fırıldaqçı falçının onun adından istifadə etdiyini bildirdi. Morin Smit bu adamdan ərinə məktub gələndə başa düşüb ki, kimsə onun adından istifadə edir. Saxta Smit hər kəsdən, eləcə də onun ərindən gələcəyini proqnozlaşdırmaq üçün on funt ödəməsini təklif edib.

# İt torpağı iyləyib, balalarını oradan çıxardı

**İtin öz küçüklərini dağılmış evin altından xilas etmək cəhdləri videosu yayılıb. Hindistanın Rajasthan bölgəsində çəkilən video "Daily Mail"in diqqətini çəkib.**



Görüntülər bir köpəyin evin təməlinin yaxınlığında necə çuxur qazdığını göstərir. Yanında oturan adam heyvanın işini asanlaşdırmaq üçün daşların dağıntılarını çıxarır. Bir müddət sonra hindistanlı itin balasını çuxurdan çıxarır və itin yanında qoyur. İt öz balasını iyləsə də, əsəbləşməyə davam edir. Sonra kişi ikinci küçüyü yerindən götürür. Hər iki küçük bir neçə həftəlikdən böyük görünürdülər.

Video Sahibsiz Heyvanların Müdafiəsi Təşkilatının könüllüləri tərəfindən çəkilib. Heyvan müdafiəçiləri etiraf ediblər ki, onlar küçüklərin sağ qaldığını bilmirdilər. Amma it onlara intuisiya ilə göstərdi ki, oranı qazmaq lazımdır. Onlar iddia edirlər ki, heyvan "özünün bütün görüntüsü ilə onlara tələsmək lazım olduğunu" göstərib. Burada itin öz balaları üçün necə fədakar olması sübuta yetib.

# Gündə iki stəkan yaşıl çay içmək yaddaşı gücləndirir



**Yaşıl çay kofeinin bədəninizə verdiyi enerji ilə eynidir. Ancaq yaşıl çay, sadəcə, enerji yüksəltməklə yox, eyni zamanda kofe içən zaman bəzi insanlarda müşahidə olunan diskomfort yaşıl çay içərkən olmur.**

Bu çayın digər bir faydası isə sakitləşdirici effektinin olmasıdır.

Gündə 2 stəkan yaşıl çay içmək yaddaşı gücləndirir.

Yaşıl çay metabolizmanı sürətləndirir. İdman etməzdən əvvəl yaşıl çay içsəniz, metabolizmanın sürətlənməsinə nail olacaqsınız. Dietaların ayrılmaz hissəsi kimi qəbul olunur.

Hər gün içildiyi təqdirdə dərinizi qorumağa da kömək edir.



## Miniatür insan ürəyi hazırlanıb

**Çikaqonun "Biolife4D" biotexniki şirkəti 3D bioprinterdə çap edilmiş miniatür insan ürəyi hazırlayıb. Hazırlanmış ürək tam ölçülü kimi eyni struktura malikdir. Şirkətin rəsmisi bildirib ki, bu, transplantasiya üçün yararlı süni ürəyin hazırlanmasında mühüm mərhələdir.**

ictnews.az-ın xəbərinə görə, hazırlanmış ürək xəstələrdən birinin kardiomiositləri (ürək əzələlərinin hüceyrələri) və hüceyrə xarici matriks birləşmələrindən hazırlanmış biomürəkkəblə çap edilib. Hazırlanmış nümunə məməlinin ürəyi ilə eynidir.

"Biolife4D" şirkəti ilk dəfə 2018-ci ilin iyununda insanın ürək toxumasını çap edib. Bundan başqa, həmin il şirkət klapanlar, mədəcik və qan damarları daxil olmaqla ürəyin ayrı-ayrı komponentlərini hazırlamışdı.

Şirkət gələcəkdə tam funksional insan ürəyi çap etməyi planlaşdırır. "Biolife4D" 3D bioprinterdə orqanlar hazırlayan yeganə şirkət deyil. Məsələn, Təl-Əviv Universitetinin mütəxəssisləri bu ilin əvvəlində ürək çap ediblər.

## Sevgilisinə yazdığı dərman.... dəri xərçənginə səbəb oldu

**İngiltərədə bir kardioloq tibbi etikanı pozmaqda və sevgilisinin sağlamlığına zərər vurmaqda günahlandırıldı. "Daily Mail"in xəbərinə görə, təyin etdiyi yuxu həbinə görə qadın günəşdə yuxuya gedib ki, bu da dəri xərçənginə səbəb olub. 55 yaşlı David Hildick-Smith təyin etdiyi sedativ dərmanlara görə narkomaniyada günahlandırılır. Amma sevgilisi heç vaxt onun xəstəsi olmayıb. Britaniyalı 2004-cü ildən bəri diazepam və zopiklon - yuxusuzluğa kömək edən yuxu həblərini qəbul edir. Kardioloq ona dərmanın dozasını artırmağı məsləhət görüb və başqa bir güclü dərman - zolpidem də əlavə edib. Qadın iddia edib ki, həkim o antidepresan qəbul etdiyi ərəfələrdə ona eyni anda 84 həb təyin edib.**



Hildika-Smithin sevgilisi uzun bir transatlantik uçuşdan sonra yuxusuzluqdan əziyyət çəkirdi. Sevgilisinin məsləhəti ilə o, diazepam götürdü və bir neçə saat sahildə yatdı. Yatarkən onun kürəyi yandı və blisterlərlə örtüldü. Daha sonra ona melanoma diaqnozu qoyuldu və dermatoloq şiddətli günəş yanmasının xəstəliyin ən çox ehtimal olunan səbəb olduğunu bildirdi.

Burada həkimin tibbi etikanı pozduğu iddia edilir və bu iş sözügedən iddia əsasında Mançesterdəki bir tibbi tribunal tərəfindən araşdırılır. Qadın ifadə verdi ki, həkim o dərmanları özəl klinikada resept formalarında təyin edib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 3.050

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.